RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 71 (9816) 12 aprel 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyev beynəlxalq platformalarda böyük maraqla qarşılanan liderdir

## Azərbaycan Prezidenti Antalya Diplomatiya Forumunun açılış mərasimində iştirak edib

**◆ Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri**







**Aprelin 11-də Türkiyənin Antalya şəhərində Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Tədbirdə əvvəlcə Türkiyənin xarici işlər naziri Hakan Fidan giriş nitqi ilə çıxış etdi. O, forumun əhəmiyyətini vurğuladı, tədbirdə çox nüfuzlu qonaqların iştirak etdiyini dedi.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi. Türkiyə dövlətinin başçısı hazırda dünyada mövcud olan problemlərin müzakirəsinin vacibliyini vurğulayaraq, bu baxımdan forumun roluna toxundu.

Qeyd edək ki, qlobal çağırışlarla bağlı müzakirələrin aparılması, onların həlli yollarının tapılması kimi məsələlərdə dünyanın aparıcı platformalarından biri olan Antalya Diplomatiya Forumunda 20-dən çox dövlət və hökumət başçısı, 70-dən artıq nazir olmaqla ümumilikdə 140 ölkədən 450-dək yüksəksəviyyəli nümayəndə iştirak edir.

Forum çərçivəsində müxtəlif formatlarda keçiriləcək 50-dən artıq tədbirdə Yaxın Şərqdən Asiya və Sakit okean hövzəsinə, Afrikadan Latın Amerikasına qədər geniş coğrafiyada qlobal çağırış və təhdidlərlə yanaşı, iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi, rəqəmsallaşma, süni intellekt kimi dünya gündəmində mühüm yer tutan məsələlər ətrafında müzakirələr aparılacaq.

## Prezident İlham Əliyev Antalyada bir sıra görüşlər keçirib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də Antalyada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə, Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə, Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə və Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhan ilə görüşü olub.

→ 2

## Haqlı tələb, qətiyyətli mövqe

### Dünya növbəti dəfə Prezident İlham Əliyevin ədalətli çağırışlarına şahidlik etdi

Azərbaycan Prezidenti İlham Əliyev təxminən üç saat ərzində ayrı-ayrı ölkələrin təmsilçilərinin ünvanladıqları sualları cavablandırdı, müxtəlif məsələlərlə bağlı dövlətimizin mövqeyini ortaya qoydu.

Dövlətimizin başçısının suallara cavablarında ən diqqətçəkən məqamlardan biri Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra regionun inteqrasiyası Ermənistanla münasibətlərin inkişafı ilə bağlı idi. Bu məsələyə münasibətlə bağlı bir daha nəzərə çatdırıldı ki, Ermənistanla sülh prosesi və Cənubi Qafqazın inteqrasiya olunmamış vəziyyəti hazırda ön plandadır. Sülh sazişi imzalanmadıqca ciddi əməkdaşlığın baş verməsi mümkün görünməsə də, Azərbaycan qarşılıqlı etimadın artırılması üçün mərhələli və praqmatik addımlara açıqdır. Ermənistan sülh sazişinin imzalanması üçün Azərbaycanın irəli sürdüyü bəlli şərtləri qəbul etməlidir. Bununla belə, hazırda Ermənistanda həm aktiv, həm də passiv revanşist qruplar mövcuddur və onlar yenidən hərbi qarşıdurma riski yaratmaqdadırlar. Ermənistanın bəzi dövlətlərdən pulsuz ölümcül silahlar əldə etməsi də gələcəkdə gərginlik ehtimalını artırır. Eyni zamanda münaqişə başa çatdığı halda Minsk qrupunun hüquqi olaraq ləğv edilməməsi meyli Ermənistanın niyyətlərinə dair suallar doğurur.

→ 8

## USAID-in ölkəmizdəki qanunsuz fəaliyyəti araşdırılır

### Təkzibedilməz faktlar üzə çıxarılır və sənədlər hazır olan kimi Tramp administrasiyasına təqdim ediləcək

Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, bizim üçün sirr deyildi ki, bu tip məqalələrin mənbəyi Dövlət Departamentidir. Eyni situasiya USAID-lə bağlı da qüvvədə idi. Daha doğrusu, ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi Soros iqtidarının əsas alətlərindən birinə çevrilmişdi. Ötən əsrin ortalarında Marşal planı çərçivəsində yaradılmış, əslində, uzunmüddətli iqtisadi və sosial inkişafa yönəlməli olan ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi kənd təsərrüfatı, ticarət, qlobal səhiyyə, demokratiya, humanitar yardıma dəstək adı altında dövlətlərin asılılıq altına salınması istiqamətində çoxsaylı proqramlar reallaşdırıb. Açıq Cəmiyyət İnstitutunun yetirməsi olan və Sorosun dəstəyi ilə karyera qurmuş Samanta Pauerin USAID-ə rəhbər təyin olunması isə təsisatın fəaliyyətini daha da radikallaşdırmış, xüsusən islam və türk dünyasına, ələlxüsus Azərbaycana münasibətdə hücumlar intensivləşmişdi. Vətən müharibəsi və antiterror tədbirləri dövründə isə USAID açıq formada tərəf kimi davranmışdır.

→ 7

## Azərbaycanın diplomatik uğurları:

### *Antalya Forumunda yeni perspektivlər*

Azərbaycan və Türkiyə arasında əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş "Bir millət, iki dövlət" prinsipinə əsaslanan münasibətlər bu gün hər iki ölkənin rəhbərlərinin siyasi iradəsi və şəxsi dostluqları sayəsində ən yüksək zirvəyə çatıb. Bu münasibətlər təkcə iki qardaş ölkə arasında deyil, həm də regionun təhlükəsizliyi və inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında formalaşmış qarşılıqlı etimada əsaslanan əməkdaşlıq bu birliyin davamlılığını və gücünü təmin edən əsas amillərdəndir.

Antalyada keçiriləcək görüşlər Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı vəziyyətinə və inkişaf perspektivlərinə dair əhəmiyyətli fikir mübadiləsi üçün geniş imkanlar yaradacaq. Bu səfər həmçinin ikitərəfli əməkdaşlığın siyasi, iqtisadi, enerji, nəqliyyat, müdafiə və digər sahələrdə daha da dərinləşdirilməsi baxımından mühüm addım olacaq. Bununla yanaşı, Azərbaycan və Türkiyə bu gün regional təhlükəsizliyin təminatçıları, sülh və əməkdaşlığın təşəbbüskarları kimi çıxış edirlər. Onların regiondakı fəallığı, Cənubi Qafqazdan Mərkəzi Asiyaya, Qara dənizdən Aralıq dənizinə qədər geniş coğrafiyada sabitliyin qorunmasına verdikləri töhfə beynəlxalq aləmdə yüksək qiymətləndirilir.

Türkiyə-Azərbaycan münasibətlərinin unikal xarakteri və bu əlaqələrin sabitliyi regional inteqrasiya və ortaq inkişaf baxımından nümunəvi model kimi çıxış edir. Heç şübhəsiz, Prezident İlham Əliyevin Antalyaya işgüzar səfəri və Antalya Diplomatik Forumunda iştirakı təkcə iki ölkə arasında strateji münasibətlərin daha da möhkəmləndirilməsi baxımından deyil, həm də Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsi və sülh təşəbbüslərinin irəlilədilməsi baxımından mühüm hadisə olacaq.

→ 10

**Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri**

# Ersin Tatar İlham Əliyevə minnətdarlığını bildirdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də Antalyada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevlə Ersin Tatar arasında ölkəmizdə və beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlər, həmçinin ötən il onun Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirakı məmnunluqla xatırlandı.

Prezident İlham Əliyev Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasını qeyd etdi. Ersin Tatar dövlətimizin başçısına Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi həmrəyliyə və dəstəyə, həmçinin bir neçə gün əvvəl ADA Universitetində keçirilən beynəlxalq forumda dediyi sözlərə görə minnətdarlığını ifadə etdi. Söhbət zamanı müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsi və bir sıra sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu.

# Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətləri bütün sahələrdə uğurla inkişaf edir






**Aprelin 11-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin perspektivləri müzakirə edilib.

Dövlətimizin başçısı Antalya Diplomatiya Forumuna dəvətə görə Türkiyə Prezidentinə təşəkkürünü bildirərək, bu tədbirin beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biri olduğunu deyib. Söhbət zamanı dövlət başçıları ikitərəfli münasibətlər, Cənubi Qafqaz və Yaxın Şərq bölgələrində vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

# Azərbaycan Suriyada sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan bərpa prosesində iştirak etməyə hazırdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də Antalyada Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Suriyada baş vermiş dəyişikliklərlə əlaqədar məmnunluğunu bildirərək, bununla bağlı Əhməd Əl Şaraanı təbrik etdi.

Dövlətimizin başçısı dedi ki, dəyişikliklərdən sonra Azərbaycan nümayəndə heyəti ən qısa müddət ərzində bu ölkəyə göndərilib və Əsəd rejiminin siyasəti səbəbindən uzun zaman fəaliyyət göstərməyən Azərbaycanın Suriyadakı səfirliyi fəaliyyətini bərpa edib.

Prezident İlham Əliyev Suriyada sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan bərpa prosesində Azərbaycanın iştirak etməyə hazır olduğunu qeyd etdi.

Əhməd Əl Şaraa Azərbaycan tərəfinin dəstəyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, gələcəkdə energetika, infrastruktur, təhlükəsizlik sahələrində Azərbaycanın Suriyaya dəstək göstərməsinin önəmini qeyd etdi.

Suriyada sabitliyin bərpası üçün əlindən gələni etdiyini deyən Əhməd Əl Şaraa bununla belə xarici amillərin bu məsələyə təsirindən narahatlığını vurğuladı.

Görüşdə eyni zamanda Azərbaycan-Suriya-Türkiyə üçtərəfli əməkdaşlıq formatının inkişafı məsələsinə toxunuldu. Söhbət zamanı ölkələrimiz arasında yüksəksəviyyəli rəsmi nümayəndə heyətlərinin və biznes dairələrinin təmsilçilərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi ilə bağlı razılıq əldə olundu.

Dövlətimizin başçısı Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət etdi.

Dəvət minnətdarlıqla qəbul olundu.

# İlham Əliyevin beynəlxalq forumda çıxışı Gürcüstanda çox böyük maraqla qarşılanıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Antalyada Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Gürcüstan arasında dostluğun və strateji tərəfdaşlığın tarixi xarakter daşıdığı qeyd olundu.

Bu ilin yanvarında Azərbaycana işgüzar səfərini və səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşlərini məmnunluqla xatırlayan Gürcüstanın Baş naziri həmin görüşlərdə ölkələrimiz arasında iqtisadi-ticari, mədəni və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə, bununla bağlı aidiyyəti dövlət qurumlarına verilən tapşırıqların icrası istiqamətində görülən işlərə toxundu.

İrakli Kobaxidze Prezident İlham Əliyevin bir neçə gün əvvəl ADA Universitetində beynəlxalq forumda çıxışı zamanı ikitərəfli əlaqələrimizə dair söylədiyi fikirlərin Gürcüstanda çox böyük maraqla qarşılandığını bildirdi.

Dövlətimizin başçısı hazırda dünyada cərəyan edən təlatümlü şəraitdə Azərbaycan və Gürcüstanın birliyinin, həmrəyliyinin vacibliyinə toxunaraq Cənubi Qafqaz bölgəsində regional məsələlərin məhz region ölkələri tərəfindən həll olunmasının vacibliyini qeyd etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.



# Sudan Azərbaycanla əlaqələrin inkişafına mühüm əhəmiyyət verir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də Antalyada Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhan ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri ölkələrimiz arasında tarixi əlaqələrin olduğunu qeyd etdi. O, Azərbaycanın həm öz regionunda, həm də dünyada böyük nüfuza malik vacib ölkə olduğunu vurğuladı.

Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhan Sudanın Azərbaycanla müxtəlif sahələrdə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini dedi və ölkələrimiz arasında mədən sənayesi, neft, energetika, infrastruktur, investisiyalar və digər istiqamətlərdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu qeyd etdi.

Söhbət zamanı təhsil və təlim sahələrində də əməkdaşlıq məsələləri müzakirə edildi.

Prezident İlham Əliyev 2019-cu ildə Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhanın Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının 18-ci Zirvə görüşündə iştirakını və səfər əsnasında aparılmış müzakirələri məmnunluqla xatırladı. Bundan sonra Azərbaycanla Sudan arasında əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi vurğulandı.

Görüşdə iki ölkə arasında münasibətlərin genişləndirilməsi üçün iqtisadi təyinatlı nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil edilməsi məsələlərinə dair fikir mübadiləsi aparıldı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq qeyd olundu.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri IV Antalya Diplomatiya Forumunda iştirak edirlər

**Aprelin 11-də Türkiyə Respublikası Prezidentinin himayədarlığı ilə bu ölkənin Xarici İşlər Nazirliyi tərəfindən təşkil edilən IV Antalya Diplomatiya Forumu (ADF) öz işinə başlayıb.**




Dünyanın 140 ölkəsindən nümayəndələrin qatıldığı forum çərçivəsində keçiriləcək 50-dən artıq panel iclasında regional və beynəlxalq təhlükəsizlik məsələləri, o cümlədən dünyanın müxtəlif bölgələrində münaqişə və müharibələr, terrorizm, iqlim dəyişiklikləri, enerji təhlükəsizliyi və digər problemlər ətrafında fikir mübadiləsi aparılacaq.

Forumu açıq elan edən Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan müasir beynəlxalq münasibətlər sistemində xaotik vəziyyətin hökm sürdüyünü vurğulayaraq istər regional, istərsə də qlobal miqyasda sülh və təhlükəsizlik naminə əməkdaşlığın önəmini nəzərə çatdırıb, qabaqcıl ideyalar platforması olan Antalya Diplomatiya Forumunun bu xüsusda əhəmiyyətini vurğulayıb.

Forumda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Xalqların rifah və tərəqqisi naminə beynəlxalq hüquq normalarına uyğun siyasətin vacibliyinə toxunan dövlət başçısı bəşəriyyəti narahat edən qlobal problemlərin həllində diplomatiyanın müstəsna rolunu vurğulayaraq Antalya Diplomatiya Forumunun dünyada önəmli dialoq platforması kimi özünü təsdiqlədiyini bildirib.

Dövlət başçısı Türkiyənin xarici siyasət prioritetlərindən bəhs edərək ölkəsinin ədalətli beynəlxalq siyasi nizamın tərəfdarı kimi bəşəriyyətin firavan gələcəyi naminə dost dövlətlərlə işbirliyini dərinləşdirmək niyyətində və başlıca hədəflərinə çatmaq iqtidarında olduğunu söyləyib.

Yeni Azərbaycan Partiyasının nümayəndələri forumun ilk günündə keçirilən bir sıra panel iclaslarına qatılıblar.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov forumun yüksəksəviyyəli iştirakçılarının şərəfinə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və birinci xanım Əminə Ərdoğanın adından verilən rəsmi ziyafətdə iştirak edib.

IV Antalya Diplomatiya Forumu çərçivəsində YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala və xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya arasında görüş də keçirilib.

AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala YAP nümayəndə heyətinin qardaş ölkəyə səfəri və forumda iştirakının Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin daha bir bariz nümunəsi olduğunu söyləyib.

Dəvətə və yüksək qonaqpərvərliyə görə rəhbərlik etdiyi nümayəndə heyəti adından təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov mötəbər beynəlxalq tədbir kimi Antalya Diplomatiya Forumunun bütün iştirakçı tərəflər üçün faydalı olacağına və səmərəli nəticələr verəcəyinə əminliyini ifadə edərək forumun işinə uğurlar arzulayıb.

Görüşdə dostluq, qardaşlıq və strateji müttəfiqliyə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində uğurla inkişaf etdiyi və ən yüksək səviyyəyə çatdığı bildirilib. Türkiyə ilə Azərbaycanın beynəlxalq platformalarda bir-birini fəal şəkildə dəstəkləməsinin milli maraqların təmini və strateji hədəflərin gerçəkləşdirilməsi baxımından əhəmiyyəti vurğulanıb. 2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn vəzifələrin yerinə yetirilməsinin həm iki ölkə arasında münasibətlərin inkişafı, həm də regionda çoxtərəfli işbirliyinin dərinləşdirilməsi və təhlükəsizliyin təmini baxımından önəmi diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan-Türkiyə birliyi türk dünyasında da əməkdaşlığın genişləndirilməsi, xüsusilə də Türk Dövlətləri Təşkilatının beynəlxalq münasibətlər sistemində önəmli güc mərkəzi kimi mövqelərinin möhkəmlənməsi və rolunun artması üçün yeni imkanlar yaratmaqdadır.

Görüş əsnasında Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyi, 2021-ci il iyunun 2-də imzalanmış Əməkdaşlıq Protokolunda əksini tapmış vəzifələrin uğurla icra olunduğu məmnunluqla vurğulanıb, hakim partiyaların bundan sonra da dövlət maraqlarına əsaslanan milli məqsədləri inamla həyata keçirəcəklərinə əminlik ifadə olunub.

Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovun da iştirak etdikləri görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə təbriklərimi və xoş arzularımı yetirirəm.

Uca Allahdan Sizə cansağlığı, xoşbəxtlik, ölkənizə və xalqınıza firavanlıq, xeyir-bərəkət diləyirəm. Tanrı Sizi qorusun!

Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun!

*Hörmətlə,*

***Əhməd Əl-TAYYİB,***
***Misirin Əl-Əzhər dini qurumunun baş imamı***

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Zati-aliləri!

Ramazan bayramı münasibətilə Sizə, ailənizə və qardaş Azərbaycan xalqına səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Zati-alinizə cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına rifah arzulayıram.

Bu bayramın islam ümmətinə və bütün bəşəriyyətə sülh, əmin-amanlıq və tərəqqi gətirəcəyinə ümid edirəm.

Uca Allahdan bütün dualarımızı qəbul etməsini diləyirəm.

Bayramınız mübarək!

*Hörmətlə,*

***Məhəmməd YALLOU,***
***Qambiya Respublikasının vitse-prezidenti***

# İqtisadi Şuranın növbəti iclası

**Aprelin 11-də İqtisadi Şuranın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində 2026-2029-cu illər üçün Prezident İlham Əliyev tərəfindən müəyyən edilən prioritet xərc istiqamətləri, Ortamüddətli Büdcə Çərçivəsi (OMBÇ), büdcə siyasətinin əsas istiqamət və hədəfləri, ortamüddətli dövr üçün ilkin makroiqtisadi proqnozlar və makrofiskal çərçivə, 2026-cı il və sonrakı üç il üçün dövlət və icmal büdcələrinin proqnoz göstəriciləri, büdcə dayanıqlığı və digər cari məsələlər ətraflı müzakirə olunub.



Gündəlikdə olan OMBÇ, 2026-cı il və sonrakı üç il üçün büdcə proqnozları barədə maliyyə naziri Sahil Babayevin geniş təqdimatı dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri tərəfindən çıxışlar edilib və müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla büdcə proqnozları barədə qərarlar qəbul olunub. Maliyyə Nazirliyinə və digər aidiyyəti qurumlara növbəti ilin büdcə zərfinin hazırlığı ilə bağlı müvafiq tapşırıqlar verilib.

# Baş nazir Əli Əsədov Qətərin mədəniyyət naziri ilə görüşüb

**Aprelin 11-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Qətər Dövlətinin mədəniyyət naziri Abdülrəhman bin Həməd Al Tani ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan-Qətər münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafından məmnunluq ifadə edilib, xüsusilə mədəniyyət sahəsində əlaqələrin yüksək səviyyədə olduğu bildirilib.

Dünən Bakıda açılışı olan Qətər Mədəniyyəti Günlərinin əhəmiyyətinə toxunulub, tədbirin Qətər xalqının zəngin mədəni irsi, adət-ənənələri ilə yaxından tanış olmaq üçün paytaxt sakinlərinə və qonaqlara gözəl fürsət yaratdığı diqqətə çatdırılıb.

Eyni zamanda 2024-cü ildə Qətərin paytaxtı Doha şəhərində Azərbaycan Mədəniyyəti Günlərinin çox uğurla keçirildiyi xatırlanıb. Bu cür tədbirlərin iki ölkənin xalqlarının daha da yaxınlaşmasına, dostluq əlaqələrinin möhkəmlənməsinə töhfə verdiyi vurğulanıb.

Görüşdə həmçinin Azərbaycan ilə Qətər arasında ticarət, investisiya, humanitar, mədəniyyət, turizm və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Azərbaycan və İran nümayəndə heyətləri Zəngilanda və Naxçıvanda yol-elektroenergetika sahəsində birgə layihələrə baxış keçiriblər





**Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayevin və ölkəmizdə səfərdə olan İran İslam Respublikasının yol və şəhərsalma naziri, komissiyanın İran tərəfindən həmsədri Fərzanə Sadeqin başçılıq etdiyi nümayəndə heyətləri, İran ərazisi vasitəsilə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək, Zəngilan rayonunun yaxınlığında Araz çayı üzərində tikintisi davam edən Ağbənd-Kəlalə avtomobil yolu körpüsünə baxış keçiriblər.**



AZƏRTAC xəbər verir ki, baxış zamanı həmsədrlərə körpünün və avtomagistraldan körpüyə bağlanacaq köməkçi yolun texniki parametrləri, burada yaradılması planlaşdırılan sərhəd-gömrük infrastrukturu, eyni zamanda tikilməsi nəzərdən keçirilən yeni dəmir yolu körpüsünün layihələri barədə məlumat verilib. Qeyd olunub ki, Ağbənd avtomobil körpüsünün və ona bitişik köməkçi yolun tikintisinin bu ilin sonunadək tamamlanması planlaşdırılır. Bu layihə regionun strateji nəqliyyat infrastrukturunun mühüm hissəsini təşkil etməklə, bir sıra əhəmiyyətli funksiyaları yerinə yetirəcək.

Tikinti işləri başa çatdıqdan sonra yeni yol marşrutu Şərqi Zəngəzur iqtisadi rayonunu Naxçıvan Muxtar Respublikası ilə birləşdirən ən qısa və səmərəli nəqliyyat bağlantısını təmin edəcək, Çin-Mərkəzi Asiya-Azərbaycan-İran-Türkiyə xəttini əhatə edən "Şərq-Qərb" nəqliyyat dəhlizinin əsas komponentlərindən biri olacaq. Eyni zamanda "Şimal-Cənub" nəqliyyat dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsinin funksional imkanlarını genişləndirəcək, Körfəz ilə Qara dənizi birləşdirən, həm relyef, həm də iqlim baxımından ən əlverişli avtomobil yolu kimi çıxış edəcək.

Tikilən avtomobil yolu I texniki dərəcəyə malik olmaqla, Ağbənd-Cəbrayıl-Ağdam-Yevlax-Gürcüstan istiqamətində səmərəli yük və sərnişin daşımalarını mümkün edəcək. Paralel olaraq, təxminən bir il ərzində tamamlanması gözlənilən Ağbənd-Laçın-Kəlbəcər-Gəncə-Gürcüstan avtomobil marşrutu da bu şəbəkəyə əlavə ediləcək və regionun nəqliyyat-logistika potensialının daha da artmasına töhfə verəcək.

Layihələrin reallaşması ikitərəfli və regional nəqliyyat-tranzit əlaqələrinin, yükdaşımaların artırılmasına, logistik imkanların genişlənməsinə və ümumilikdə geniş kommunikasiya bağlantılarının yaradılmasına şərait yaradacaqdır.

Nümayəndə heyəti həmçinin Azərbaycan ərazisində tikintisi sürətlə davam edən, strateji əhəmiyyətə malik Horadiz-Ağbənd dəmir yolu xətti ilə də əyani tanış olublar. Bu dəmir yolu xətti regionun əsas nəqliyyat xətlərindən biri olmaqla yanaşı, həm müxtəlif nəqliyyat kommunikasiyalarının şaxələndirilməsi, həm də beynəlxalq yükdaşımaların səmərəli təşkili üçün yeni imkanlar yaradacaq.

Həmsədrlər daha sonra İran ərazisi vasitəsilə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək ikinci körpü olan Ordubad-Siyahrud avtomobil körpüsünün layihəsi və yerləşəcəyi yer üzrə ərazi imkanlarını nəzərdən keçiriblər. Körpünün koordinatlarının müəyyənləşdirilməsi və texniki parametrləri ilə bağlı təkliflər dinlənilib və bu istiqamətdə müzakirələrin davam etdirilməsi razılaşdırılıb.

Nümayəndə heyətləri həmçinin Ordubad-Marazad Su-Elektrik Stansiyası layihəsi üzrə aparılan işlərlə də tanış olublar. Bildirilib ki, Araz çayı üzərində gücü 36 MVt olan Ordubad SES-in ümumi tikinti işlərinin 60 faizi yekunlaşıb və davamı üçün İran tərəfindən işlərin aparılmasına əlavə imkanlar yaradılmalıdır. Həmsədrlər həmçinin Culfa sərhəd-keçid məntəqəsinə də baş çəkib və məntəqənin mövcud şəraiti ilə tanış olublar.

Həmsədrlər İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizə baş tutacaq səfərinin ikitərəfli münasibətlərin inkişafında yeni səhifə açacağına əminliyini ifadə edərək, iki ölkə arasında ümumilikdə bütün sahələr üzrə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu və prezidentlərin tapşırığına müvafiq olaraq mövcud layihələrin başa çatdırılması istiqamətində birgə səylərin davam etdiriləcəyini qeyd ediblər.

Baş nazirin müavini 30 illik işğal müddətində ermənilər tərəfindən dağıdılan və talan edilən ərazilər barədə iranlı naziri və nümayəndə heyətini məlumatlandırıb.

# Azərbaycan Prokurorluğu ilə BMT-nin müxtəlif institutları arasında əməkdaşlıq məsələləri müzakirə olunub

**Aprelin 11-də baş prokuror Kamran Əliyev BMT-nin qanunun aliliyi və təhlükəsizlik məsələləri üzrə Baş katibinin köməkçisi Aleksandr Zuyev ilə görüş keçirib.**



Baş prokuror görüş zamanı Azərbaycanla BMT arasında formalaşmış səmərəli tərəfdaşlığı yüksək qiymətləndirib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Kamran Əliyev 2024-cü ilin noyabr ayında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Bakıda təşkil olunmuş COP29 konfransının böyük uğurla keçirilməsini və onun mühüm nəticələrini vurğulayıb.

Aleksandr Zuyev COP29-un yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, konfrans çərçivəsində Azərbaycan Respublikasının Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən birgə təşkil olunmuş hüquq-mühafizə orqanlarının iqlim dəyişikliyi ilə mübarizədə roluna həsr olunmuş yüksəksəviyyəli plenar iclasın uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

Görüşdə həmçinin 2025-ci ildə Braziliyanın Belem şəhərində keçiriləcək COP30 Konfransı ilə bağlı hazırlıq prosesi müzakirə olunub, "Troyka" prinsipi əsasında BƏƏ, Azərbaycan və Braziliya arasında əməkdaşlığın davam etdirilməsi və bu çərçivədə hüquq-mühafizə orqanlarının iştirakını təmin edən növbəti yüksəksəviyyəli tədbirin təşkili ilə bağlı məsələlərə toxunulub.

Görüş zamanı tərəfləri maraqlandıran digər məsələlər müzakirə olunub, o cümlədən Azərbaycanın prokurorluq əməkdaşlarının BMT-nin müxtəlif institutlarında təlim keçməsi və ezam olunması imkanları da nəzərdən keçirilib.

# Baş prokuror Yevlax rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Aprelin 11-də baş prokuror Kamran Əliyev Yevlax Rayon Prokurorluğunun inzibati binasında Yevlax, Ağdam, Goranboy, Naftalan, Tərtər rayon, Mingəçevir şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 41 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Ceyhun Bayramov BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi ilə görüşüb

**Aprelin 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos ilə görüşüb.**

XİN-dən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və BMT-nin Sivilizasiyalar Alyansı arasında mövcud əməkdaşlığın gündəliyində duran məsələlər, birgə həyata keçirilən layihələrin davam etdirilməsi və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub. Nazir Ceyhun Bayramov Azərbaycan ilə BMT-nin Sivilizasiyalar Alyansı arasında mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi sahəsində mövcud əməkdaşlığın mühüm rolunu qeyd edib. Azərbaycanın Bakı Prosesi çərçivəsində və digər beynəlxalq təşəbbüslər vasitəsilə mədəniyyətlərarası dialoqa verdiyi töhfənin əhəmiyyəti vurğulanıb.

Nazir həmçinin postmünaqişə dövründə regional vəziyyət, Azərbaycanın sülh səyləri və Ermənistanla sülh prosesi, habelə mövcud maneələr barədə qarşı tərəfə məlumat verib.

Ali nümayəndə Migel Angel Moratinos Azərbaycanın mədəniyyətlərarası dialoq sahəsində beynəlxalq səviyyədə apardığı fəal və ardıcıl siyasəti yüksək qiymətləndirib. O, Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığının bundan sonra da uğurla həyata keçirilməsinin vacibliyini vurğulayıb və birgə təşəbbüslərin gələcəkdə də davam etdirilməsinə dəstəyini ifadə edib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər, o cümlədən qlobal çağırışlar qarşısında mədəniyyətlərarası həmrəyliyin təşviqi, islamofobiya ilə mübarizə sahəsində birgə fəaliyyət imkanları barədə fikir mübadiləsi aparıblar.

## Milli Məclisin iclasında

# Azərbaycan yeni dünya düzəninin formalaşmasına təsir göstərir

**Aprelin 11-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə rəhbərliyi ilə nümayəndə heyətinin Özbəkistana işgüzar səfəri ilə bağlı məlumat verib.**



Sahibə Qafarova qeyd edib ki, aprelin 4-dən 7-dək davam edən səfərdə məqsəd Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin dördüncü konfransını təşkil və iştirak etmək, həmçinin Parlamentlərarası İttifaqın 150-ci Assambleyasında və assambleya çərçivəsində keçirilən Asiya Parlament Assambleyasının Koordinasiya iclasında iştirak etmək idi.

Spiker xatırladıb ki, hazırda Milli Məclisin Sədri 5 beynəlxalq parlament təşkilatına sədrlik edir. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Asiya Parlament Assambleyası bunlardan ikisidir.

Qeyd edilib ki, səfərin ilk günü nümayəndə heyətinin üzvləri Daşkənddə Heydər Əliyev Meydanında olublar. Orada nümayəndə heyəti Ulu Öndərin abidəsini ziyarət edib və onun əziz xatirəsini ehtiramla yad edib.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin dördüncü konfransında hərəkatın üzvü olan dövlətlərin parlamentlərindən və beynəlxalq təşkilatlarından 48 nümayəndə heyəti, başqa sözlə, 280-dən artıq nümayəndə iştirak edib. Azərbaycanın sədrliyi ilə konfransda "Bandunq ruhunun 70 illiyinin qeyd olunması: Bandunq prinsiplərinin dəstəklənməsində parlamentlərin rolu" mövzusunda müzakirələr aparılıb. Həmin tədbirdəki giriş nitqində spiker Sahibə Qafarova Qoşulmama Hərəkatının təməlində dayanan Bandunq prinsiplərinin bu gün üçün əhəmiyyətindən danışıb. O qeyd edib ki, suverenlik, ərazi bütövlüyü, bərabərlik, daxili işlərə qarışmamaq, ədalətə hörmət və beynəlxalq öhdəliklər kimi prinsiplərə ciddi əməl olunması bütün xalqların dinc yanaşı yaşaması və daha yaxşı gələcək naminə səmərəli əməkdaşlığı üçün vacibdir.

Milli Məclisin Sədri 2019-2024-cü illərdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etdiyini xatırladıb. O vurğulayıb ki, Qoşulmama Hərəkatının Sədri kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir sıra təşəbbüsləri hərəkatın üzvləri arasında həmrəyliyin, qarşılıqlı dəstəyin və əməkdaşlığın gücləndirilməsi, habelə onun institusional inkişafı üçün həyati əhəmiyyət kəsb edib.

Həmin tədbirdə spiker Azərbaycan Prezidentinin təşəbbüsü ilə Parlament Şəbəkəsinin yaradılmasının Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin mühüm nailiyyətlərindən biri olduğunu bildirib. Konfransdakı çıxışında o, Parlament Şəbəkəsinə rəhbərlik etdiyi 3 il ərzində görülmüş işlər haqda danışıb. Qeyd edib ki, ilk növbədə ötən dövr ərzində Şəbəkənin institusional inkişafı üzrə mühüm addımlar atılıb. Belə ki, Büro və 4 daimi komitə yaradılıb, Şəbəkənin fəaliyyətinin daha da təkmilləşdirilməsi istiqamətində nizamnaməyə müvafiq dəyişikliklər edilib.

Qeyd olunan dövrdə Parlament Şəbəkəsinin beynəlxalq əlaqələrinin gücləndirilməsi məqsədilə 8 təşkilatla Əməkdaşlıq memorandumları imzalanıb, 6 təşkilatda müşahidəçi statusu əldə edilib. Hazırda 7 təşkilat da Parlament Şəbəkəsində müşahidəçi statusuna malikdir.

Konfransda təşkilati məsələlərə də baxılıb. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə Milli Məclisin sədrliyinin növbəti 3 illik dövr üçün yenilənməsi qərara alınıb.

Konfransın yekununda Daşkənd Bəyannaməsi qəbul olunub. Bəyannamədə digər mühüm məsələlərlə yanaşı, Qoşulmama Hərəkatına üzv dövlətlərdə yaşayış yerlərini zor gücü ilə dəyişməyə məcbur qalmış insanların, o cümlədən Qərbi Azərbaycan İcmasının sülh yolu ilə təhlükəsiz şəraitdə və ləyaqətlə ata-baba torpaqlarına qayıtmaq hüququna dəstək ifadə edilib. Spiker xatırladıb ki, Asiya Parlament Assambleyasından sonra bu, ikinci dəfədir ki, Azərbaycanın sədrlik etdiyi beynəlxalq parlament təşkilatının Bəyannaməsində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində Qərbi Azərbaycan mövzusu öz əksini tapıb.

Parlamentlərarası İttifaqın 150-ci Assambleyasının isə "Sosial inkişaf və ədalət naminə parlament fəaliyyətləri" mövzusuna həsr edildiyini deyən Milli Məclisin Sədri həmin assambleyadakı çıxışında bu günün aktual məsələləri, o cümlədən dünyada baş verən münaqişələr və geosiyasi gərginlik, iqtisadi bərabərsizlik, ekoloji və digər çağırışlar, sosial inkişaf məsələləri və onların həlli yolları barədə fikirlərini bölüşdüyünü diqqətə çatdırıb. O, tədbirdəki çıxışında xüsusən sosial inkişaf məsələləri ilə bağlı Azərbaycanın təcrübəsi və nailiyyətləri haqqında geniş məlumat verib. Konstitusiyamızın müvafiq müddəalarına uyğun olaraq, parlament tərəfindən müxtəlif sahələrə aid əsas qanunların qəbul edildiyini və mövcud qanunların daim təkmilləşdirildiyini bildirib.

Milli Məclisin Sədri qeyd edib ki, səfər çərçivəsində Azərbaycanın sədrliyi ilə keçirilən Asiya Parlament Assambleyasının Koordinasiya iclası da olub. Spiker həmin iclasda assambleyanın bu ilin fevral ayında Bakıda keçirilmiş 15-ci plenar iclasının yekunlarının əlverişli imkanlar yaratdığını bildirib. O, Azərbaycanın sədrliyi dövründə irəli sürülən prioritetlər barədə də danışıb. Bu prioritetlər Asiya Parlament Assambleyasının institusional imkanlarının inkişafı, üzvlərin sıralarının genişləndirilməsi və mövcud orqanların effektivliyinin artırılması ilə bağlıdır. O həmçinin qeyd edib ki, Asiya Parlament Assambleyası konstruktiv dialoq və əməkdaşlıq üçün mühüm çoxsahəli bir qurumdur.

Spiker işgüzar səfər çərçivəsində keçirdiyi ikitərəfli görüşlərdən də danışıb. Qeyd edib ki, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə söhbət zamanı ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin ruhuna uyğun olaraq, parlamentlərimizin geniş əməkdaşlıq əlaqələrinə malik olmasından məmnunluq ifadə edilib.

Sahibə Qafarova qeyd edib ki, o, bundan əlavə 9 ikitərəfli görüş də keçirib. Parlamentlərarası İttifaqın Baş katibi, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı Daimi Komitəsinin sədri (İCAPP), Rusiya, Pakistan, Bəhreyn, İsrail, Mərakeş parlamentlərinin sədrləri, Tolerantlıq və Sülh Təşkilatının, Türk Mədəniyyəti və İrsi Fondunun rəhbərləri ilə görüşlərdə ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

Konfransın ikinci günündə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Tolerantlıq və Sülh Təşkilatı, eləcə də Türk Mədəniyyəti və İrsi Fondu arasında memorandumlar da imzalanıb.

Milli Məclisin Sədri Özbəkistan Respublikasına işgüzar səfərin uğurlu olduğunu diqqətə çatdırıb və bununla əlaqədar nümayəndə heyətinin hər bir üzvünə minnətdarlığını bildirib.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Müzakirələrdə komitə sədrləri Fazil Mustafa, Zahid Oruc, deputatlar Səyyad Salahlı, Elman Nəsirov, Rizvan Nəbiyev, Azay Quliyev, Sahib Alıyev, Müşfiq Məmmədli, Tural Gəncəliyev, Kamal Cəfərov, Ceyhun Məmmədov çıxış ediblər.

Çıxışlarda aprelin 9-da ADA Universitetində Prezident İlham Əliyevin iştirakı ilə "Yeni dünya nizamına doğru" mövzusunda keçirilmiş beynəlxalq forumda tədbir iştirakçılarının suallarını cavablandıran dövlətimizin başçısının söylədiyi strateji əhəmiyyətli fikirlərə münasibət bildirilib. Qeyd olunub ki, Prezident öz çıxışında Azərbaycan-Ermənistan münasibətlərinin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələ barədə açıqlamasında sülh tərəfdarı olan ölkəmizin sülh müqaviləsinə dair 5 baza prinsipinin müəllifi olduğunu, Ermənistanın isə sülhdən danışaraq, eyni zamanda silahlandığını, sərhəddə mütəmadi olaraq atəşkəsi pozduğunu bildirib. Dövlətimizin başçısının öz açıqlamalarında toxunduğu digər məqamların, o cümlədən Türkiyə-İsrail münasibətlərinin normallaşmasında ölkəmizin rolu, bəlli səbəblərdən Azərbaycanın Avropa İnsan Hüquqları Məhkəməsinin qəbul etdiyi qərarları tanımadığı, USAID-in fəaliyyətinin məqbul hesab edilmədiyi və bununla bağlı araşdırmaların aparıldığı barədə fikirlərin, habelə hazırda dünyada gedən proseslərlə bağlı verdiyi mesajların, ortaya qoyduğu mövqeyin Azərbaycanın milli maraqlarına uyğun olduğunu söyləyiblər.

Vətən müharibəsində Qələbəmizdən sonra Prezident İlham Əliyevin düşünülmüş siyasi, hərbi, diplomatik strategiyasına uyğun regionda yeni reallıqlar yarandığını deyən millət vəkilləri, bu nöqteyi-nəzərdən ölkəmizdə son vaxtlarda keçirilən beynəlxalq səviyyəli tədbirlərin dövlətlərarası münasibətlərin möhkəmləndirilməsi, elm adamlarının aktual məsələlərə dair mövqeyinin öyrənilməsi baxımından əhəmiyyətindən bəhs ediblər. Bu gün Azərbaycanın yeni dünya düzəninin formalaşmasına təsir göstərdiyini, o cümlədən Qoşulmama Hərəkatı çərçivəsində səmərəli fəaliyyət göstərdiyini qeyd ediblər.

Deputatlar bu günlərdə spiker Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Özbəkistana işgüzar səfəri zamanı müzakirəyə çıxarılan mövzuların önəmindən də söhbət açıblar. Bunu eyni zamanda parlament diplomatiyası sahəsində əldə edilən uğurların bariz nümunəsi kimi dəyərləndiriblər.

Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistanda olduğu müddətdə nümayəndə heyətimizin hər addımda hörmət və ehtiramla qarşılandığını bildirib. Bütün bunların Azərbaycan Prezidentinə, respublikamızın beynəlxalq aləmdə tutduğu mövqeyə olan yüksək münasibətin nəticəsi olduğunu vurğulayıb.

Spiker çıxışların əksəriyyətinin ADA Universitetində keçirilmiş beynəlxalq forumla bağlı olduğunu deyərək və burada səslənən fikirlərin önəmini nəzərə alaraq, sosial şəbəkələr, media vasitəsilə, o cümlədən Milli Məclisin "Yutub" kanalında "dəyirmi masa" təşkil olunaraq, bu məsələlərin geniş ictimaiyyətə çatdırılmasını təklif edib.

Müzakirələrdə millət vəkilləri digər məsələlər barədə də öz fikirlərini bölüşüblər.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyə 22 məsələnin daxil edildiyini, ilk 6 məsələnin Milli Məclisin qərar layihələri olduğunu söyləyib. Spiker diqqətə çatdırıb ki, ölkə Prezidentinin təqdimatına əsasən, Xanlar Rüstəm oğlu Vəliyevin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında məsələyə baxılmalıdır.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məsələ barədə məlumat verib. O, Xanlar Vəliyevin Azərbaycanın hüquq-mühafizə sistemində tanınmış şəxs olduğunu, onun prokurorluq orqanlarında yüksək vəzifələrdə çalışdığını, o cümlədən baş prokurorun müavini, Azərbaycan Respublikasının Hərbi prokuroru kimi fəaliyyət göstərdiyini, ədliyyə general-leytenantı, hüquq elmləri üzrə fəlsəfə doktoru olduğunu diqqətə çatdırıb. Ölkə Prezidentinin Xanlar Vəliyevin fəaliyyətini yüksək qiymətləndirdiyini, onun Azərbaycan Respublikasının Əməkdar hüquqşünası adına layiq görüldüyünü, "Vətənə xidmətə görə" I və II dərəcəli ordenlərlə, "Azərbaycan Bayrağı" ordeni ilə, "Hərbi xidmətlərə görə" medalla təltif edildiyini bildirib.

X.R.Vəliyevin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında Milli Məclisin qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Spiker nəzərə çatdırıb ki, "Konstitusiya Məhkəməsi haqqında" qanunun 13-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsinin hakimi vəzifəyə təyin edildiyi gün Milli Məclisin iclasında and içməlidir.

Konstitusiya Məhkəməsinin yeni təyin olunmuş hakimi Xanlar Vəliyev çıxış edərək onun bu vəzifəyə təyin olunması ilə bağlı Milli Məclisə müraciət etdiyinə görə ölkə Prezidentinə minnətdarlığını ifadə edib. O, eyni zamanda Milli Məclisin Sədrinə və millət vəkillərinə bu məsələyə səs verdikləri üçün təşəkkür edib. Sonra Xanlar Vəliyev iclasda and içib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov M.Ə.Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında, Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında, Sumqayıt Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında, Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında, Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında məsələlər barədə məlumat verib. Bildirilib ki, təqdimatlara əsasən, namizədlərdən 1 nəfərin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi, 3 nəfərin Bakı Apellyasiya Məhkəməsinin hakimləri, 2 nəfərin Sumqayıt Apellyasiya Məhkəməsinin hakimləri, 2 nəfərin Şəki Apellyasiya Məhkəməsinin hakimləri, 4 nəfərin Şirvan Apellyasiya Məhkəməsinin hakimləri təyin edilməsi nəzərdə tutulur. Bununla yanaşı, hakim vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar apellyasiya instansiyası məhkəmələrinin 4 hakiminin tutduqları vəzifədən azad olunması təqdimatlarda öz əksini tapıb.

Təqdim edilən məsələlər ətrafında müzakirələrdə deputatlar Hikmət Məmmədov, Bəhruz Məhərrəmov, Arzuxan Əli-zadə çıxış edərək, məhkəmə-hüquq sistemində aparılan islahatların əhəmiyyəti barədə öz fikirlərini bölüşüblər.

Milli Məclisin bu qərar layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

İclasda Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Çingiz Əsgərov çıxış edərək ədalət mühakiməsinin səmərəliliyini, məhkəmə hakimiyyətinin nüfuzunu artırmaq, hakimlərin müstəqilliyini qorumaq məqsədilə ölkənin məhkəmə-hüquq sistemində genişmiqyaslı islahatların həyata keçirildiyini söyləyib. O, dövlət tərəfindən məhkəmə hakimiyyətinə göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə minnətdarlığını ifadə edib. Eyni zamanda Milli Məclisin Sədrinə və deputatlara verdikləri dəstəyə görə təşəkkürünü bildirib.

İclasda daha sonra Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya qoşulmaq barəsində", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Kommersiya sirri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə, "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinin uyğunlaşdırma xarakteri daşıdığını və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul edilməli olduğunu bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bu məsələ barədə məlumat verib. O, layihəyə əsasən, üç qanunda, o cümlədən "Dövlət rüsumu haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Aviasiya haqqında" qanunlarda dəyişiklik edilməsinin nəzərdə tutulduğunu bildirib.

Nəzərə çatdırılıb ki, "Lisenziyalar və icazələr haqqında" qanunun 4.1-ci maddəsinə əsasən lisenziya tələb olunan fəaliyyət növləri və icazələr yalnız bu qanunla müəyyən edildikdən sonra müvafiq sahəni tənzimləyən digər qanunlarda əks edilir. Qanuna 3 nömrəli əlavə - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 28-ci, 29-cu, 30-cu maddələri isə fitosanitar nəzarəti ilə bağlı icazə növlərini müəyyən edir. Qeyd olunanları nəzərə alaraq, təqdim olunan qanun layihəsində "Fitosanitar nəzarəti haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda istifadə olunan termin və ifadələrin (o cümlədən icazə sənədlərinin adlarının) "Lisenziyalar və icazələr haqqında" qanuna uyğunlaşdırılması həyata keçirilir, "Lisenziyalar və icazələr haqqında" qanunda "idxal karantin icazəsi" icazə növü nəzərdə tutulmadığından onunla bağlı müddəalar müvafiq qanunlardan çıxarılır, "daxili karantin sertifikatı" ilə bağlı müddəalar səhvi qanuna daxil edilir və tənzimlənməsi həyata keçirilir, sənədin dövlət rüsumu tutulmadan verilməsi təsbit olunur, habelə uyğunlaşdırma xarakterli digər düzəlişlər nəzərdə tutulur.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məsələ barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Dərman vasitələri haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Sosial xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Mediasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Baytarlıq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda qəbul edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikası Silahlı Qüvvələri İntizam Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. O bildirib ki, qanun layihəsi hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarının hüquqi statusunun daha ətraflı tənzimlənməsi, həmçinin bir sıra normaların təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Nəzərə çatdırılıb ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunun qüvvədə olan 28.3-cü maddəsinə uyğun olaraq, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarının həqiqi hərbi xidməti müddətli həqiqi hərbi xidmətə bərabər tutulur. Buna əsasən də layihədə müddətli həqiqi hərbi xidmət qulluqçuları hesab olunan əsgərlərə (matroslara) münasibətdə şamil olunan bir sıra normaların kursantlara münasibətdə də tətbiqi nəzərdə tutulur.

Bundan başqa, layihədə kursantlar tərəfindən hərbi xidmətdə və təhsildə daha yüksək nəticələr əldə edilməsinə səy göstərilməsi, motivasiyanın artırılması məqsədilə "Azərbaycan Respublikası Silahlı Qüvvələri İntizam Nizamnaməsinin təsdiq edilməsi haqqında" Qanuna əlavə edilməsi nəzərdə tutulan 23-1-ci maddəyə əsasən, onlara qanunun 22-ci maddəsi ilə (bəzi bəndləri istisna olmaqla) müəyyənləşdirilən həvəsləndirmə tətbirlərinin tətbiq edilməsi təklif olunur. Həmçinin kursantların hərbi nizam-intizamının təmini üçün qanuna əlavə edilməsi təklif olunan 48-1-ci maddə ilə kursantlara münasibətdə tətbiq edilən intizam tənbeh tədbirlərinin növləri müəyyənləşdirilir.

Eyni zamanda kursantların məsuliyyətinin, hərbi təhsilin və xidmətin effektivliyinin artırılması məqsədilə layihədə "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili Xidmət Nizamnaməsinin təsdiq edilməsi haqqında" Qanuna "Kursantın vəzifələri" hissəsi əlavə edilir.

Bundan başqa, layihədə kursant hərbi rütbəsinin əsgər (matros) hərbi rütbəsinə bərabər tutulması, normativ hüquqi aktlarda nəzərdə tutulmuş hallarda kursant hərbi rütbəsində ehtiyata buraxılmış hərbi qulluqçuların ehtiyatda olma müddətlərinin qanunvericiliklə əsgər və matroslar üçün müəyyən edilmiş ehtiyatda olmanın son yaş hədlərinə uyğun hesablanması kimi normalar da nəzərdə tutulur..

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Növbəti məsələ - Mülki Prosessual Məcəllədə və "İcra haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Ədliyyə orqanlarında aparılan uğurlu islahatlardan, xüsusən məhkəmə qərarlarının icrası sahəsindəki müsbət dinamikadan söz açan Əli Hüseynli bildirib ki, görülmüş tədbirlər və xidmətin səmərəli həyata keçirilməsi sayəsində 2024-cü ildə rekord nəticə əldə olunub. Buna nail olmağın əsas səbəbi də elektron xidmətlərdən istifadənin artmasıdır.

Komitə sədri deyib ki, layihədə təklif olunanlar "Elektron məhkəmə", "Elektron notariat", "Elektron icra" sistemlərinin vahid elektron məkanda fəaliyyət göstərməsini təmin edən vacib dəyişikliklərdir.

Mülki Prosessual Məcəlləsinə təklif olunan dəyişikliklər ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılan borclunun anlayışının konkretləşdirilməsi və bununla bağlı qəbul edilmiş məhkəmə qərardadının qüvvəyə minməsi və icrası ilə əlaqədar məsələlərin tənzimlənməsini nəzərdə tutur. Bu anlayışın konkretləşdirilməsi ilə bağlı eyni məzmunlu dəyişikliklər "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa da təklif olunur. Bundan başqa qanun layihəsində fiziki və hüquqi şəxsin nümayəndəsinin anlayışı daha dolğun şəkildə verilmiş, icra hərəkətləri həyata keçirilərkən borclu tərəfindən icraya mane olan hərəkətlərin, tələbkarın tələbi üzrə əlavə məhkəmə qərarı olmadan aradan qaldırılması məzmununda əlavələr edilmişdir.

Sənədin müzakirəsində komitə sədri Zahid Orucun dəyişikliklərlə bağlı fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra komitə sədri Arzu Nağıyev "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi haqqında məlumat verib. Bildirilib ki, "Hərbi xidmətkeçmə haqqında" Əsasnaməyə və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna əsasən, ordu generalı hərbi rütbəsinə malik hərbi qulluqçular üçün hərbi xidmətdə olmağın son yaş həddi müəyyən edilmir. Müzakirəyə təqdim olunan qanun layihəsində həqiqi hərbi xidmətdə olmağın son yaş həddi müəyyən edilməyən şəxslərin dairəsinin genişləndirilməsi təklif olunub. Layihədə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən müvafiq dövlət orqanlarının rəhbəri və müavini üçün də son yaş həddinin müəyyən edilməməsi təsbit olunur.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair məlumat verib. O, ölkəmizdə mütəmadi olaraq pensiya islahatlarının aparıldığını, əmək pensiyalarının şəffaf və ədalətli şəkildə təmin edildiyini söyləyib. Musa Quliyev təqdim edilən qanunda nəzərdə tutulan dəyişikliklərin güzəştli şərtlərlə pensiyaya çıxan şəxslərin dairəsinin genişləndirilməsi ilə bağlı olduğunu bildirib. Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda pensiyaçıların pensiya təminatının təkmilləşdirilməsi sahəsində dövlətin öhdəliklərinin dəqiq çərçivəsinin müəyyən edilməsi nəzərdə tutulub. Layihədə "Əmək pensiyaları haqqında" qanunun 6.2-ci maddəsinə uyğun olaraq, uşaqlara görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası alan şəxslərin erkən pensiyası üçün 5 il ərzində ödənilən məbləği, bundan başqa, liliputların və fizioloji mütənasibliyi pozulmuş cırtdanboy şəxslərin erkən pensiyası üçün 20 il ərzində ödənilən məbləği, həmçinin orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə, habelə ahıllara qulluq dövrünün sığorta stajına daxil edilməsi ilə əlaqədar güzəştlərin qazanılmış pensiya kapitalına əsasən formalaşan məbləği üzrə əmək pensiyası ödənişinin maliyyə mənbəyi kimi dövlət büdcəsi müəyyən olunur və bu müddəanın 2025-ci il yanvarın 1-dən tətbiq edilməsi nəzərdə tutulur.

Komitə sədri vurğulayıb ki, dəyişikliklər dayanıqlı pensiya təminatının formalaşmasına xidmət edir. Eləcə də qanunvericilik aktlarının unifikasiyası xarakteri daşıyır və pensiya təminatının maliyyələşdirilməsində Dövlət Büdcəsi və Sosial Sığorta Fondunun öhdəliklərinin sərhədlərini dəqiqləşdirir.

Deputatlar Əli Məsimli və Aydın Hüseynovun sənədlə bağlı fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## "Aviasiya personalının dövri olaraq ilkin və təkrar, nəzəri və praktiki testlərdən, psixoloji müayinələrdən keçirilməsi, peşəyə yararlılığını müəyyən edən tibb müəssisələrinin və onların əməkdaşlarının sertifikatlaşdırılması Qaydaları"nın və "Heyət üzvünün hava gəmisinin bortunda vəzifəsini icra etməsinə yol verməyən xəstəliklərin siyahısı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 103** **Bakı şəhəri, 8 aprel 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.16-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Aviasiya personalının dövri olaraq ilkin və təkrar, nəzəri və praktiki testlərdən, psixoloji müayinələrdən keçirilməsi, peşəyə yararlılığını müəyyən edən tibb müəssisələrinin və onların əməkdaşlarının sertifikatlaşdırılması Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Heyət üzvünün hava gəmisinin bortunda vəzifəsini icra etməsinə yol verməyən xəstəliklərin siyahısı" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Hava gəmilərinin istismarçıları tərəfindən sərnişin məlumatlarına dair "bir pəncərə" sisteminə ötürülən sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyat məlumatlarının siyahısı, verilməsi, qəbul edilməsi, saxlanılması və digər dövlət orqanları (qurumları) ilə mübadilə edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 104** **Bakı şəhəri, 9 aprel 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.25-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Hava gəmilərinin istismarçıları tərəfindən sərnişin məlumatlarına dair "bir pəncərə" sisteminə ötürülən sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyat məlumatlarının siyahısı, verilməsi, qəbul edilməsi, saxlanılması və digər dövlət orqanları (qurumları) ilə mübadilə edilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikasının ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə verilməli olan məlumatların Siyahısı" və "Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikasının ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə məlumatların daşıyıcılar tərəfindən verilməsi, habelə həmin məlumatların qəbul edilməsi, saxlanması və digər dövlət orqanları (qurumları) ilə mübadilə edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 iyul tarixli 330 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1352 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 105** **Bakı şəhəri, 9 aprel 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299 (Cild I); 2024, № 1, maddə 78, № 3, maddə 354, № 6 (II kitab), maddə 715, № 10, maddə 1167, № 11, maddə 1252) aşağıdakı məzmunda 4.36-cı bənd əlavə edilsin:

"4.36. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən elektrik mühərrikli avtomobillər üçün elektrik enerji doldurucularının istehsalı məqsədilə idxal olunan hissə və ləvazimatların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə siyahısı" təsdiq edilsin *(əlavə olunur).".*

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir və 2027-ci il 1 yanvar tarixinədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 dekabr tarixli 409 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hava gəmisində silahın daşınması Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 106** **Bakı şəhəri, 9 aprel 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli və "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında" 2025-ci il 10 mart tarixli 346 nömrəli fərmanlarına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 dekabr tarixli 409 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1683 (Cild I) ilə təsdiq edilmiş "Hava gəmisində silahın daşınması Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Milli Məclisinin Korsika Xalqına Dəstək Qrupunun Fransa Milli Assambleyasının qəbul etdiyi qətnaməyə dair bəyanatı

**Fransa Milli Assambleyası Azərbaycana qarşı qərəzli mövqeyini növbəti dəfə nümayiş etdirərək ölkəmizə qarşı, o cümlədən Bakı Təşəbbüs Qrupunun fəaliyyəti ilə bağlı absurd iddiaların əks olunduğu qətnamə qəbul edib.**

Digər tərəfdən, bu ölkənin xarici işlər naziri Jan Noel Baro da Milli Assambleyadakı çıxışında həmin iddiaları təkrarlayıb, ölkəmiz əleyhinə əsassız ittihamlar səsləndirib.

Azərbaycan Respublikası Milli Məclisinin Korsika Xalqına Dəstək Qrupu olaraq, biz beynəlxalq hüquqa və obyektiv reallığa uyğun gəlməyən qətnaməni və səsləndirilmiş fikirləri şiddətlə qınayır, bunları Fransanın Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasının növbəti nümunəsi kimi qiymətləndiririk.

Azərbaycan Respublikası hər zaman beynəlxalq hüququn prinsiplərinə, xüsusilə də dövlətlərin suverenlik prinsipinə sadiqdir. Bakı Təşəbbüs Qrupu isə məhz bu prinsiplərə əsaslanaraq, beynəlxalq platformalarda müstəmləkəçilik siyasətinə qarşı çıxış edən, azadlıq və ədalət uğrunda mübarizə aparan xalqlara dəstək məqsədi daşıyan bir platformadır.

Fransa tərəfinin bu təşəbbüsü gözdən salmaq cəhdləri, əslində, onun öz bədnam müstəmləkə siyasətinə haqq qazandırmaq niyyətindən irəli gəlir.

Fransa kimi beynəlxalq hüququ və demokratiyanı müdafiə etdiyini iddia edən bir dövlətin Ermənistanın Azərbaycan torpaqlarının 30 illik işğalına göz yumması, bu müddət ərzində bir milyondan çox azərbaycanlının doğma yurdlarından didərgin düşməsinə, mədəni və dini abidələrin dağıdılmasına səssiz qalması bu ölkənin əsl simasının sübutu, adət etdiyi ikili standartların daha bir bariz ifadəsidir.

Biz bu gün müzəffər Azərbaycan liderinin rəhbərliyi altında artıq suveren ərazilərimizdə yaşayırıq, ərazi bütövlüyümüz tam bərpa olunmuşdur. Bununla da biz Fransanın Cənubi Qafqazda apardığı destruktiv siyasətin qarşısını kəsmişik. Ancaq biz görürük ki, Fransa məhz həmin müstəmləkəçilik təfəkkürünü Cənubi Qafqaz regionunda da tətbiq etməyə çalışır. Hələ də Ermənistanı silahlandırır və Ermənistandan manipulyativ alət kimi istifadə edir.

Bu gün Fransa hakimiyyəti Azərbaycanın beynəlxalq hüquqa əsaslanan haqlı addımlarını hədəf almağa çalışır. Lakin Fransa artıq anlamalıdır ki, onun müstəmləkəçilik siyasəti, Yeni Kaledoniya və digər bölgələrdə yerli xalqların iradəsinin kobud şəkildə pozulması Bakı Təşəbbüs Qrupunun səyləri sayəsində artıq beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir.

Biz Fransa hakimiyyətini və qanunvericilik orqanını beynəlxalq hüquq və ədalət prinsiplərinə zidd siyasətlərdən imtina etməyə, fundamental insan hüquqlarına hörmət etməyə və dənizaşırı ərazilərdəki xalqların müstəqillik arzularını təmin etməyə çağırırıq.

***"Azərbaycan"***

## X.R.Vəliyevin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə və 130-cu maddəsinin II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Xanlar Rüstəm oğlu Vəliyev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 11 aprel 2025-ci il*

## M.Ə.Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Mehdi Ədalət oğlu Əliyev vəzifəsi dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 11 aprel 2025-ci il*

# Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 93-4-cü maddəsinə uyğun olaraq Əhmədov Zəfər Vahid oğlu Bakı Apellyasiya Məhkəməsinin hakimi təyin edilsin.

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Bakı Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

İsmayılov Orxan Nadir oğlu,
Musayev Aqil Əlisa oğlu.

3. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq aşağıdakı hakimlər vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsinlər:

Allahverdiyev Elbəy Hidayət oğlu,
Əyyubov Fərid İlham oğlu,
Sarıyev Xəyal Əjdər oğlu.

4. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 11 aprel 2025-ci il*

## Sumqayıt Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Sumqayıt Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Məmmədov Elçin Qüdrət oğlu,
Muxtarov Kamran Nüsrət oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 11 aprel 2025-ci il*

## Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şəki Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Musayev Taleh Valeh oğlu,
Musayev Vüqar Ələkbər oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 11 aprel 2025-ci il*

# Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şirvan Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Əliyev Əli Abdulla oğlu,
Quliyev Ceyhun Əmir oğlu,
Sadıqov Mirlətif Süleyman oğlu,
Sultanov Cavid Rizvan oğlu.

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq Əliyev Elşad İbiş oğlu vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 11 aprel 2025-ci il*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Astara rayonunda vətəndaşların müraciətini dinləyib.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Astara rayon Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Lənkəran şəhərindən, həmçinin Lerik və Astara rayonlarından olan sakinlər iştirak ediblər.

Dövlət komitəsinin aidiyyəti struktur bölmələri rəhbərlərinin də iştirakı ilə keçirilən görüşdə vətəndaşların müxtəlif mövzularda müraciətləri dinlənilib.

Mövzular əsasən hüquqi yardım, işlə təmin olunma və digər mövzularla bağlı olub.

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınaraq aidiyyəti şöbələrin icraatına göndərilib.

* * *

Bu gün Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədri Zaur Mikayılov Şəmkir Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin inzibati binasında Şəmkir, Gədəbəy və digər rayonlardan olan vətəndaşlarla görüşüb, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Görüşdən öncə sədr Zaur Mikayılov və Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev şəhərin mərkəzində ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Daha sonra Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Müraciətlər əsasən suvarma suyuna olan tələbatın ödənilməsi, kanalların beton üzlüyə alınması, içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması, subartezian quyularının təmiri və balansa götürülməsi, işlə təminat və digər məsələlərlə bağlı olub.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

***AZƏRTAC***



# Yüksək etimad nümunəsi

## ABŞ Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisidir

**"Ölkələrimiz birgə işləmək sahəsində zəngin tarixə malikdir və mən qarşıdan gələn illərdə əldə edə biləcəyimiz möhtəşəm məqamları səbirsizliklə gözləyirəm. Azərbaycanın tərəfdaşımız İsrailə dəstəyini və onunla dostluğunu dəyərləndirir, ölkənizin və Ermənistanın regiona sülh gətirmək üçün atdığı addımları alqışlayıram.**

Ölkələrimiz uğurlara doğru sürətlə irəlilədikcə Sizinlə işləməyi səbirsizliklə gözləyirəm. Birləşmiş Ştatlar Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır".

Bu səmimi fikirlər Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Prezident İlham Əliyevə Novruz bayramı münasibətilə ünvanladığı təbrik məktubunda yer alıb. Ağ Ev Adminstrasiyasını Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi kimi təqdim edən ABŞ-nin 47-ci prezidenti eyni zamanda İlham Əliyevin regionda həyata keçirdiyi sülh siyasətinə də öz dəstəyini nümayiş etdirib.

Ümumiyyətlə, Azərbaycan-ABŞ münasibətlərinə gəlincə, iki dövlət arasında tərəfdaşlığın 33 ildən artıq tarixi vardır. Bu illər ərzində ölkələrimiz arasında bərabərlik, qarşılıqlı hörmət və enerji təhlükəsizliyi, sülhməramlı əməliyyatlar, terrorla mübarizə və digər sahələr daxil olmaqla uğurlu əməkdaşlıq ənənələri formalaşıb. İki ölkə arasında siyasi əlaqələr dinamik olaraq inkişaf edir. ABŞ Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanıyıb, diplomatik münasibətlər isə 28 fevral 1992-ci ildə qurulub. Azərbaycanın ABŞ-də səfirliyi 6 mart 1992-ci ildə, ABŞ-nin Azərbaycanda səfirliyi isə həmin ilin 16 martında açılıb. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında 90-a yaxın sənəd imzalanıb və genişmiqyaslı əməkdaşlıq üçün müvafiq normativ-hüquqi baza yaradılıb. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupu 1997-ci ildən fəaliyyət göstərir.

Öncə onu vurğulayaq ki, məhz Donald Trampın birinci prezidentlik dövründə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlıq münasibətləri daha da möhkəmlənib. Bunu ötən ilin noyabr ayının 25-də Prezident İlham Əliyevin qələbə münasibətilə Donald Trampa etdiyi telefon zəngi zamanı liderlərin danışığında eşitmişik. İlham Əliyev seçkilərdə inamlı qələbənin Amerika xalqının Donald Trampın yürütdüyü siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsi olduğunu vurğulayaraq qeyd etmişdir ki, Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynayacaq.

Birinci prezidentlik dövründə Azərbaycan ilə ABŞ arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə Donald Trampın xüsusi diqqət ayırdığını deyən dövlətimizin başçısı ikitərəfli əlaqələrin irəli aparılması üçün birgə səylər göstəriləcəyinə ümidvarlığını bildirmişdir. Prezident Donald Tramp öz növbəsində səmimi təbriklərə görə İlham Əliyevə dərin təşəkkürünü bildirərək ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə birgə səylərlə çalışmağın vacibliyini vurğulamışdır.

Yanvarın 21-də də Azərbaycan Prezidenti ABŞ-nin 47-ci Prezidenti kimi fəaliyyətə başlaması münasibətilə D.Trampa ünvanladığı məktubda da bir daha əminliyini bildirmişdir ki, onun gələcək fəaliyyəti dünyada sülhün təşviqində, beynəlxalq təhlükəsizliyin gücləndirilməsində önəmli rol oynayacaq.

İlham Əliyev ABŞ-nin müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edən, enerji sahəsində xoş ənənələrə əsaslanan və möhkəm təməllər üzərində qurulmuş əməkdaşlığı yüksək qiymətləndirmiş, ölkəmizin enerji siyasətinə Donald Trampın verdiyi daimi dəstəyi xüsusi vurğulamışdır: "İnanıram ki, Sizin yeni prezidentliyiniz dövründə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında dostluq və əməkdaşlıq münasibətləri daha da möhkəmlənəcək və yeni məzmun kəsb edəcəkdir".

Aprelin 9-da ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forumda Prezident İlham Əliyev Azərbaycan-ABŞ münasibətlərinə bir daha toxunaraq son illərdəki əlaqələri dəyərləndirib. Prezident qeyd edib ki, Azərbaycan hər zaman ABŞ ilə münasibətlərin yüksək səviyyədə olmasını istəyib.

İlham Əliyevin Prezident kimi fəaliyyətə başladığı 2003-cü ildə əlaqələr yeni mərhələyə qədəm qoyub. Həmin zaman ABŞ Prezidenti Corc Buş Azərbaycanla əlaqələrin inkişaf etdirilməsində çox maraqlı olub. Həmin zaman hər iki ölkə qarşılıqlı dəstəyi yüksək qiymətləndirib və ikitərəfli əlaqələrin strateji əhəmiyyətini açıq şəkildə bəyan edib. Azərbaycan Əfqanıstanda və İraqda əməliyyatlara qoşulan ilk qeyri-NATO ölkələri arasında idi. Bu, ABŞ Administrasiyasının müraciətinə əsasən olmuşdu. Azərbaycan təkcə çox sayda hərbçiləri vasitəsilə fiziki dəstəyi deyil, həm də istər hava yolu və ya yerüstü vasitələr və Xəzər dənizi vasitəsilə Əfqanıstana mühüm nəqliyyat əlaqəsini təmin edib. Bu, Prezident Buş Administrasiyası dövründə ABŞ hökuməti tərəfindən yüksək qiymətləndirilib. Prezident Buşun səlahiyyət müddəti başa çatandan sonra vəziyyət ciddi şəkildə olmasa da, bir qədər dəyişib.

Lakin Bayden-Blinken Administrasiyası dövründə ABŞ ilə Azərbaycan arasında münasibətlər böhran vəziyyətində olan münasibətlər kimi səciyyələndirilə bilər. İlham Əliyev vurğulayıb ki, vəziyyətin bu hala gəlməsinin səbəbkarı Azərbaycan olmayıb: "Biz dünyanın ən güclü ölkəsi olan ABŞ ilə hər zaman yaxşı münasibətlərimizin olmasını istəmişik. Bu, cənab Blinkenin rəhbərlik etdiyi Dövlət Departamentinin yürütdüyü anti-Azərbaycan siyasəti və Prezident Bayden Administrasiyasında olan anti-Azərbaycan mövqeli bir çox şəxslər üzündən baş verdi. Mən Azərbaycanda məyusluğa səbəb olmuş müxtəlif faktları qeyd edə bilərəm. Düşünürəm ki, cəmi birini - Azərbaycana qarşı sanksiyaların yenidən necə tətbiq olunmasını söyləmək kifayətdir. ABŞ-nin Azərbaycana ehtiyacı olanda Azərbaycana münasibətdə ayrı-seçkiliyi nümayiş etdirən Azadlığa Dəstək Aktına "907-ci düzəliş" müvəqqəti olaraq dayandırıldı. ABŞ-nin hər bir prezidenti hər il bunu dayandırırdı. Lakin Bayden-Blinken Administrasiyası Əfqanıstandan qaçan kimi,- bunu onların necə etdiyini hamımız gördük, - onlar bizə qarşı bu düzəlişi yenidən tətbiq etdilər. Belə nankor olmaq administrasiyanın özünə də ziyan verir. Çünki bundan sonra onlara kim etimad edəcəkdi? Bizim Bayden-Blinken komandasına etimad səviyyəmiz sıfra bərabər idi. Münasibətlərimiz dərin böhran içərisində idi".

Dövlət başçısı deyib ki, Bayden-Blinken dövründə ABŞ Ermənistana münasibətdə birtərəfli mövqe tutub. Bu, Ermənistan-Azərbaycan münaqişəsi başlayandan bəri ilk dəfə idi ki, rəsmi şəkildə baş verirdi. Ötən il aprelin 5-də keçirilən görüş, qondarma "Avropa Sülh Fondu"nun silah almaq üçün Ermənistana ilk tranşını ayırması, Prezident Donald Trampın səlahiyyətlərinin icrasına başlamazdan 5 gün əvvəl ABŞ ilə Ermənistan arasında imzalanmış strateji tərəfdaşlıq bəyannaməsi və digər proseslər Bayden-Blinken Adminstrasiyasının anti-Azərbaycan addımlarının tərkib hissəsi idi.

Prezident qeyd edib ki, Bayden-Blinken komandası hakimiyyətdən gedən kimi, Azərbaycana qarşı bütün bu insinuasiyalar dərhal dayandırılıb. "Washington Post", "New York Times", "Politico" və s. kimi Azərbaycana qarşı çox aqressiv olan, Prezident Trampın "feyk xəbərlər" adlandırdığı media ölkəmiz haqqında çirkin məqalələr dərc etməyə son qoyub.

Artıq Tramp Administrasiyasının üzvləri ilə Azərbaycan nümayəndə heyəti arasında müxtəlif səviyyələrdə yüksəksəviyyəli təmasların baş tutduğunu deyən dövlət başçısı vurğulayıb ki, Tramp Administrasiyasının gündəliyi nəzərə alınsa, münasibətlərdə tərəfdaşlığı gücləndirmək üçün çox yaxşı imkan var. Çünki Azərbaycan Cənubi Qafqazın aparıcı ölkəsidir. Qlobal Cənubun bir hissəsi olan, 4 il uğurlu sədrlik etdiyi Qoşulmama Hərəkatında güclü mövqeyə, Mərkəzi Asiya regionu ilə güclü əlaqələrə malik olan, imkanları, iqtisadi potensialı, enerji ehtiyatları, gücünü paradlarda deyil, döyüş meydanında nümayiş etdirmiş ordusu və hər kəslə siyasi əlaqələri olan Azərbaycan ABŞ üçün çox mühüm tərəfdaş ola bilər: "Biz bunun olmasını istəyirik. Biz bunun baş verdiyini görürük, eyni zamanda başa düşürük ki, indi Prezident Tramp və komandası qlobal gündəlikdə duran daha aktual və mühüm məsələlərlə məşğuldur. Ona görə də biz yeni administrasiya ilə çox güclü, proqnozlaşdırılabilən, uzunmüddətli strateji əlaqələrə başlayacağımız və ya ola bilsin ki, yenidən başlayacağımız vaxtı gözləyirik".

Göründüyü kimi, Azərbaycanla ABŞ, İlham Əliyevlə Donald Tramp arasında münasibətlər səmimi xarakter daşıyır. Bütün bunlara əsasən deyə bilərik ki, iki ölkənin liderləri arasında olan belə münasibət Azərbaycan-ABŞ əməkdaşlığında yeni səhifə açacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Hərbi Qənimətlər Parkının açılışından 4 il ötür

**Azərbaycan xalqı otuz ilə yaxın müddət ərzində əzəli torpaqlarının düşmən tapdağında qalmasının nisgili, kədəri ilə yaşadı. Amma heç vaxt torpaqlarımızın azad olunacağı ilə bağlı ümidimizi itirmədik, həsrətin bitəcəyinə inandıq. Bu illər ərzində xalqımız çox böyük ədalətsizliklərlə qarşılaşsa da, 44 gün davam edən Vətən müharibəsində tarixi qələbəyə imza ataraq, öz gücünü bütün dünyaya nümayiş etdirdi.**




# Zəfərin əbədiyaşarlıq simvolu










Azərbaycanın Vətən müharibəsindəki Zəfərindən sonra, noyabrın 11-də Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbçilərlə görüşündə düşmənin qənimət götürülmüş və məhv edilmiş texnikasının nümayişi üçün planlarının olduğu barədə məlumat vermişdi. 2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradında həmin texnikaların bir qismi nümayiş etdirildi. Dövlət başçısı elə həmin günlərdə Hərbi Qənimətlər Parkının salınması barədə təşəbbüs irəli sürdü. Sözdən əməli işə keçid özünü çox gözlətmədi, qısa müddət sonra, 2021-ci il aprelin 12-də Bakıda düşmən üzərində çalınan möhtəşəm qələbənin əbədiyaşarlıq simvolu olan parkın açılışı oldu.

Açıq səma altında 5 hektarlıq ərazidə salınan parkda düşməndən qənimət götürülən 300-ə qədər zirehli ağır texnikalar, tanklar, piyadaların döyüş maşınları, zenit-raket kompleksləri, artilleriya qurğuları və digər eksponatlar nümayiş etdirilir. İkinci Qarabağ savaşında fərarilərinin sayı 12 minə çatmış ermənilərin silah-sursatını, hərbi texnikasını döyüş meydanında atıb qaçması heç də təəccübləndirici deyil. Çünki Azərbaycanın qüdrətli ordusu, igid əsgərləri qarşısında xisləti bəlli düşmən duruş gətirə bilməzdi.

Parkda ən yaddaqalan və rəmzi eksponatlardan biri muzeyin girəcəyində sərgilənən, düşməndən qənimət götürülən 2000-dən çox avtomobilin nömrə nişanlarından hazırlanan "Qarabağ Azərbaycandır!" lövhəsidir. Azərbaycan Ordusunun gücünü, qüdrətini simvolizə edən bu lövhə Ermənistanın miskin durumunu əks etdirir. Muzeyin açılışında lövhənin qarşısında çıxış edən Prezident İlham Əliyev onun erməni fərariliyinin təzahürü olduğunu söyləmişdi: "Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb. Əslində, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya, Ermənistanın məğlubedilməz ordusu var. Azərbaycanlılar isə şəxsi maşınlarını qoyub, öz torpaqlarından çıxmışdılar. Biz bunu unutmamışıq və bu lövhə erməni fərariliyinin təzahürüdür".

1992-ci ilin mayında, Şuşa şəhərinin işğalı zamanı qala şəhərimizə ilk daxil olmaq istəyən, amma Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov tərəfindən vurularaq sıradan çıxarılan, ekipajı məhv edilən 442 nömrəli "abidə" tank da park ərazisindədir. Birinci Qarabağ müharibəsindən sonra Qarabağdakı separatçılar həmin tankı "qələbə rəmzi" kimi bərpa edərək Şuşa yaxınlığında abidə olaraq qoymuşdular. Hətta azğın düşmən 44 günlük müharibədən sonra da həmin tankın yanından Azərbaycana ünvanlı hədsiz iddialar səsləndirirdilər. Şanlı ordumuz 2023-ci ildə həyata keçirdiyi 23 saatlıq antiterror tədbirləri ilə qanunsuz erməni hərbi birləşmələrini, terrorçuları darmadağın etdi, bu "abidə"ni də onlar üçün gözdağına çevirdi.

Hər bir elementi unikal olan parkda gəzərkən buradakı oturacaqlar diqqət çəkir. Onlar ilk baxışdan ümumi abhavaya uyğun olaraq maraqlı formada düzəldilmiş kimi görünürlər. Əslində isə, bu oturacaqların hər biri qənimət kimi götürülmüş mərmi yeşiklərindən düzəldilib. Parkın ərazisindəki işıqlandırma sistemi mərmilərin ərintilərindən, tullantı yeşikləri isə tank mərmisinin barıt atıcısının futlyarından hazırlanıb.

Hərbi Qənimətlər Parkının ən maraqlı guşələrindən biri 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazidir. Burada 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üçcərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi. Otuz il ərzində möhkəmləndirilən mövqelərin daxilində isə döyüş postu, əsgər kazarması yerləşir. Kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir.

Vətən müharibəsi zamanı döyüş həm də informasiya cəbhəsində gedirdi. Dünya ictimaiyyəti və beynəlxalq kütləvi informasiya vasitələri son məlumatları ən etibarlı mənbədən - Prezident İlham Əliyevdən alırdı. Parkın ərazisindəki hərbi çadır altında qurulan "Video-hall"da dövlət başçısının qələbə tvitləri, media qurumlarına müsahibələri, xalqa müraciətləri, habelə Vətən müharibəsinə aid videoçarxlar və qısametrajlı filmlər nümayiş etdirilir.

Burada informasiya mərkəzi və suvenir satışı məntəqəsi də var. İnformasiya mərkəzində parkdakı bütün eksponat və kompozisiyalar haqqında məlumat əldə etmək mümkündür. Parkı ziyarət edənlər suvenir satışı məntəqəsindən xatirə üçün Vətən müharibəsinə aid suvenirlər də əldə edə bilərlər.

Hərbi Qənimətlər Parkını gəzərkən ayaq saxladığımız hər yerdə Azərbaycan Ordusunun qüdrətini, gücünü hiss edirik. Zəfər qısa müddətdə qazanılsa da, qələbəyə gedən yol ilmək-ilmək hörülüb. Eşq olsun bu qələbəni bizə yaşadan şanlı Azərbaycan Ordusuna!

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*




# Yeni dünya nizamına Azərbaycanın töhfəsi

**ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum Azərbaycanın geostrateji mövqeyi, bölgədə sülhün təminatçısı olması, yeni nəqliyyat və energetika xəritəsi yaratması, Asiya ilə Avropanı birləşdirməsi və əvəzolunmaz ölkəyə çevrilməsi, yeni dünya nizamında öz xüsusi çəkisi olan dövlət kimi qəbul edilməsi ölkəmizin bölgədə tamamilə yeni reallıqlar yaratdığını bir daha dünya ictimaiyyətinə çatdırmaq baxımından xüsusi əhəmiyyətə malikdir.**



Ən böyük reallıq, əlbəttə ki, torpaqlarımızın azad edilməsi, Ermənistanın işğalçı siyasətinə son qoyulmasıdır. Yeni reallıqlar zəminində qarşıda duran digər məsələlər bölgədə kommunikasiyaların açılması, sərhədlərin delimitasiya və demarkasiyası, sülhün təmin olunmasıdır. Azərbaycan sübut etdi ki, Cənubi Qafqazda sülhün və sabitliyin davamlı dövlət siyasətinə çevrilməsi hər bir dövlətin qarşısında zəruri məsələ kimi dayanmalıdır.

Azərbaycan faktiki olaraq bu gün regionu əməkdaşlıq və təhlükəsizlik müstəvisinə çıxardı. Bununla da Vətən müharibəsindən sonra Cənubi Qafqazda vəziyyət tamamilə dəyişdi. Uzun illər ərzində qlobal geosiyasətin ən həssas məkanlarından birinə çevrilən Qafqaz regionunda sabitlik bərpa olundu. Bütün bunların davamı kimi hazırda Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının təşəbbüskarı kimi çıxış edir. Region dövlətləri arasında mövcud olan çoxtərəfli əməkdaşlıq formatları da Cənubi Qafqazda yeni geosiyasi reallığın əsasının qoyulduğunun əyani sübutudur.

Bu gün Cənubi Qafqazın lider dövləti olan Azərbaycan mövcud olduğu regionun inkişafında mühüm rol oynamaqdadır. Belə ki, reallaşması bilavasitə Azərbaycanın iştirakından asılı olan transmilli layihələr dünya miqyasında Cənubi Qafqaza diqqətin artması ilə yanaşı, onun geosiyasi əhəmiyyətini artırmaqda, iqtisadi inkişafını sürətləndirməkdədir. Azərbaycan Cənubi Qafqazda yeni geosiyasi reallıq yaradıb. Cənubi Qafqazın dünya siyasi və iqtisadi məkanına inteqrasiya prosesində artıq söz Azərbaycanındır. Azərbaycanın Cənubi Qafqazada söz sahibinə çevrilməsi, ədalətli və qətiyyətli mövqeyi, ölkə Prezidentinin qlobal miqyasda nüfuzlu Lider olmasının nəticəsidir.

Forumda cənab Prezidentin qeyd etdiyi - "Hesab edirəm ki, Xəzər dənizinin o tayındakı və Azərbaycanın cənubundakı qonşularımızla, xüsusilə Yaxın Şərq ölkələri ilə çox güclü münasibətlər qurmuşuq. Avropa ölkələri ilə uzunmüddətli əməkdaşlığa gəldikdə, bu ölkələrin bir çoxu ilə Azərbaycan strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalayıb və ya qəbul edib. Beləliklə, artıq qurulmuş bu platforma Mərkəzi Asiya və Avropa regionu arasında coğrafi, siyasi, iqtisadi və nəqliyyat körpüsü olaraq önəmli rol oynamağa imkan verir. İndi istər Avropa İttifaqı və ya Amerika Birləşmiş Ştatları olsun, istərsə də digər beynəlxalq təşkilatlar olsun, Qərbdən Mərkəzi Asiyaya və əlbəttə ki, həmin regionla uzunmüddətli əməkdaşlığın qurulmasının planlaşdırılmasına böyük marağın olduğunu bilirik. Azərbaycanın nəzərə alınmamasının mümkünsüz olduğunu anlamaq üçün, sadəcə, xəritəyə nəzər salmaq kifayət edər"- fikirləri bir daha ölkəmizin güc və nüfuzunun əyani təzahürünü göstərir.

Azərbaycan nəinki regionun, həm də təmsil və rəhbərlik etdiyi beynəlxalq təşkilatların da kifayət qədər tanınmasında böyük səylər göstərib. Qətiyyətlə demək olar ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi bu qurumun dünya miqyasında tanınması baxımından müstəsna əhəmiyyət kəsb etdi. Ölkəmizin mövcud müstəvidə gördüyü işlər, irəli sürdüyü təşəbbüslər Qoşulmama Hərəkatının beynəlxalq nüfuzunun yüksəlməsi reallığını doğurdu. Təşkilatın üzvlərinin 2023-cü ildə Azərbaycanın sədrliyinin bir il uzadılması ilə bağlı qərarı da bundan qaynaqlandı. Deməli, ölkəmiz yüksək etimadı layiqincə doğrultdu və nəticədə Qoşulmama Hərəkatına sədrliyi daha bir il də uzadıldı.

Bu bir reallıqdır ki, Azərbaycan bərpaolunan enerji mənbələri üzrə də yüksək potensiala malik olan ölkələrdən biridir. Cənab İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli də qoyuldu. 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlı sənəd qəbul edildi. Bu isə "yaşıl iqtisadiyyat"a keçidlə bağlı qarşıya yeni hədəflər qoydu. Həmin hədəfləri uğurla icra edən Azərbaycan ötən dövrdə ən böyük layihələrə evsahibliyi etdi. Onlardan biri də ötən il ölkəmizin böyük beynəlxalq tədbirə evsahibliyi etməsidir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un - sözügedən nüfuzlu, qlobal xarakterli tədbirin məhz Bakıda keçirilməsinə dair qərar bütün dünya ölkələri tərəfindən qəbul edilmişdir.

Prezident İlham Əliyev beynəlxalq forumda Azərbaycanın türk dünyası dövlətləri arasında əməkdaşlığa hər zaman öz dəstəyini verdiyini də bildirib: "Bizi tarix, etnik köklər birləşdirir. Dillərimiz arasında oxşarlıqlar var, mədəniyyətlərimiz, adət-ənənələrimiz kifayət qədər oxşardır", - deyən dövlətimizin başçısı əlavə edib: "İstərdik ki, bu təşkilat, yəni Türk Dövlətləri Təşkilatı daha güclü olsun və nəticələrə köklənsin. Bu baxımdan Azərbaycan hər zaman əlindən gələni edib".

Türk Dövlətləri Təşkilatının 2009-cu ildə Naxçıvan şəhərində keçirilən Zirvə görüşündən indiyədək qurum səmərəli inkişaf yolu keçib. Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatı ölkələri ilə bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri elan edib.

Azərbaycan bu gün regionda "yaşıl enerji" lideri kimi, bir sıra dövlətlərlə sıx əməkdaşlıq edir. Onlardan biri də Çindir. Prezident İlham Əliyevin forumda respublikamızın bu ölkə şirkətləri ilə sözügedən istiqamətdə fəal əməkdaşlıq qurması barədə fikirləri də diqqət çəkir: "Biz hazırda Çin şirkətləri ilə fəal işləyirik və onları müxtəlif sahələrdə, xüsusilə "yaşıl enerji" sahəsində bizimlə strateji tərəfdaş olmağa dəvət edirik. Onların şirkətləri "yaşıl" ictimai nəqliyyat vasitələrinin istehsalında bizim tərəfdaşdırlar. Artıq bu il yeni avtobuslar istifadəyə veriləcəkdir və Günəş panelləri də Azərbaycanda quraşdırılır, onlar Çin istehsalıdır. Eyni zamanda biz bəzi Çin şirkətləri ilə də danışıqlar aparırıq ki, bilavasitə "yaşıl enerji" sahəsinə yatırımlar qoyulsun".

Təbii ki, Çin şirkətlərinin ölkəmizə olan böyük marağı təsadüfi deyil. Çünki son illər ərzində Azərbaycan resursdan asılı iqtisadiyyatdan innovasiya, sahibkarlıq və biliyə əsaslanan sənaye üzərində inkişaf edən iqtisadiyyata uğurla keçid edib. Tətbiq edilən vergi güzəştləri, sərfəli kreditlər, hökumət təşəbbüsləri ilə dəstəklənən əlverişli investisiya mühiti və dövlət-özəl sektor tərəfdaşlığının genişləndirilməsi diqqətdə saxlanılıb.

Bu gün Azərbaycan beynəlxalq proseslərə istiqamət verən, yeni və uğurlu təşəbbüslərlə çıxış edən, beynəlxalq aləmdə öz sözünü deyən ölkəyə çevrilib. Azərbaycanın artıq beynəlxalq tədbirlərə evsahibliyi etmək sahəsində böyük təcrübəsi var və bu da ölkəmizə yetərincə müsbət imic qazandırıb. Ölkəmizin mövqeyi hər zaman bir olub - dövlətlərin suverenliyinə, müstəqilliyinə xələl gətirəcək siyasətdən imtina edilməli, bir-birinin işlərinə qarışmamaq, müxtəlif bəhanələrlə ölkələrin daxili vəziyyətini gərginləşdirməmək siyasəti əsas götürülməlidir. Azərbaycanın bu mövqeyi müstəqil siyasət yürütdüyünü nümayiş etdirir və özünə dünyada nüfuz qazandırır.

Dövrün çağırışlarını özündə ehtiva edərək, ənənəvi olaraq keçirilən bu forumlar Azərbaycanın balanslaşdırılmış xarici siyasətinin müxtəlif dövlətlərlə istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar daxilində əlaqələrin yüksək səviyyədə qurulmasına və yeni istiqamətlər üzrə inkişaf etdirilməsinə əhəmiyyətli töhfədir.

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Ali Məclisinin Sədr müavini***

# USAID-in ölkəmizdəki qanunsuz fəaliyyəti araşdırılır

## Təkzibedilməz faktlar üzə çıxarılır və sənədlər hazır olan kimi Tramp administrasiyasına təqdim ediləcək

**"Bu ilin yanvarına qədər ABŞ-də hakimiyyətdə olmuş demokratlar iqtidarı Qafqaz siyasətini birmənalı şəkildə bölgədə ayırıcı xətlər çəkmək, Azərbaycanı təcrid etmək, ölkəmizə qarşı ayrı-seçkilik etmək, ölkəmiz haqqında şayiələr yaymaq cəhdləri üzərində qurmuşdu. ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forumda möhtərəm Prezidentin də ifadə etdiyi kimi, "Bayden-Blinken komandası hakimiyyətdən gedən kimi Azərbaycana qarşı bütün bu insinuasiyalar dərhal dayandırıldı. Onların "Washington Post", "New York Times", "Politico" və sair kimi bizə qarşı çox aqressiv olan, Prezident Trampın "feyk xəbərlər" adlandırdığı mediası Azərbaycan haqqında çirkin məqalələr dərc etməyi saxladı".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, bizim üçün sirr deyildi ki, bu tip məqalələrin mənbəyi Dövlət Departamentidir. Eyni situasiya USAID-lə bağlı da qüvvədə idi. Daha doğrusu, ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi Soros iqtidarının əsas alətlərindən birinə çevrilmişdi. Ötən əsrin ortalarında Marşal planı çərçivəsində yaradılmış, əslində, uzunmüddətli iqtisadi və sosial inkişafa yönəlməli olan ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi kənd təsərrüfatı, ticarət, qlobal səhiyyə, demokratiya, humanitar yardıma dəstək adı altında dövlətlərin asılılıq altına salınması istiqamətində çoxsaylı proqramlar reallaşdırıb. Açıq Cəmiyyət İnstitutunun yetirməsi olan və Sorosun dəstəyi ilə karyera qurmuş Samanta Pauerin USAID-ə rəhbər təyin olunması isə təsisatın fəaliyyətini daha da radikallaşdırmış, xüsusən islam və türk dünyasına, ələlxüsus Azərbaycana münasibətdə hücumlar intensivləşmişdi. Vətən müharibəsi və antiterror tədbirləri dövründə isə USAID açıq formada tərəf kimi davranmışdır.

Deputat qeyd edib ki, antiterror tədbirlərinin ardınca Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən yaxalanan separatçı rejimin keçmiş "lider"lərinin istintaqa verdiyi ifadələr USAID-in həm də korrupsiyalaşmış mexanizmə çevrilməsi reallığını meydana çıxarır: "Təsadüfi deyil ki, separatçı "lider"lərin saxlanmasının ardınca Samanta Pauer böyük həyəcanla Ermənistana səfər etmiş və Azərbaycan-Ermənistan şərti sərhədində jurnalistlərə müsahibəsində Azərbaycanı açıq şəkildə ittiham etmiş, Ermənistanın isə işğal və təcavüz siyasətini müdafiə etmişdi. Ötən dövr ərzində ABŞ Dövlət Departamentindən aldığı tezislər əsasında USAID imkanlarını səfərbər edərək, beynəlxalq ictimai rəydə ölkəmiz əleyhinə qərəzli fon formalaşdırması, həmçinin Azərbaycan daxilində süni qarşıdurma yaradılması istiqamətində çoxşaxəli fəaliyyətlərə start verib. USAID-in Ermənistana 5 illik yardım paketini 2 dəfə artırması da məhz bu çərçivədə qiymətləndirilməli idi".

B.Məhərrəmov bildirib ki, xüsusən son 5 ildə Bayden-Blinken administrasiyasının regionda sabit, təhlükəsiz mühitin qurulmasını arzulamadığı və Beynəlxalq İnkişaf Agentliyinin də bu prosesdə ənənəvi olaraq mexanizm kimi çıxış etməsi açıq-aydın görünüb. Lakin ozamankı Vaşinqton administrasiyasının yanlış hesabladığı bir məqam var idi ki, Azərbaycanı digər coğrafiyalarla eyniləşdirmək olmaz. Cənab İlham Əliyev hələ 15 il öncədən bölgədə artıq elə bir reallıq yaratmağa başlamışdı ki, ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin proseslərə hər hansı formada köklü təsir etmək imkanı minimuma enmişdi. Xüsusən Gürcüstan, Ermənistan, Ukrayna kimi dövlətlərdən fərqli olaraq 2010-cu ildən etibarən Azərbaycan vətəndaş cəmiyyəti institutlarında həyata keçirilən şəffaflaşma və sağlamlaşma fonunda bu təxribatçı təsisatın da, digər Soros törəmələrinin də Azərbaycan cəmiyyətinə təsirini mümkünsüz etmişdi. Bu baxımdan, ötən dövr ərzində USAID daha çox gücü Ermənistan daxilində fəaliyyətə, o cümlədən bu ölkəyə Azərbaycan əleyhinə təcavüzkar məqsədlərin dəstəklənməsi üçün əlavə yardımlar ayrılmasına yönəltmişdi. Bu məqamda ortaya başqa bir sual çıxırdı: Sorosun təlimatları ilə davranan Bayden-Blinken cütlüyü, o cümlədən USAID-nin təxribatçı cəhdləri ABŞ-yə dünyada, həmçinin Cənubi Qafqazda hansısa üstünlük qazandıra bildimi? Əminliklə deyə bilərik ki, ən azı Cənubi Qafqazda məğlub dövlətə "siyasi yatırım" etməklə Vaşinqton ciddi nüfuz itkisinə məruz qalmış, Azərbaycanla münasibətləri faktiki sıfırlamaqla milli maraqlarını Soros maraqlarının kölgəsinə keçirmiş olmuşdu.

Deputat vurğulayıb ki, Bayden iqtidarı məsələni görməzdən gəlməyə, hətta daha irəli getməyə çalışsa da, Trampın hakimiyyətə gəlməsi ilə vəziyyət dəyişib, proseslərə daha sağlam baxış bucağı müşahidə olunmağa başlayıb: "Prinsipial siyasətçi olaraq Tramp Vaşinqtonun fayda əmsalını doğru qiymətləndirməyi bacararaq artıq soyuq müharibə qaydaları ilə oynamağın kimsəyə fayda verməyəcəyini və "Azadlıq radiosu", "Amerikanın səsi" kimi xaç yürüşü alətlərinə çevrilmiş muzdlu media alətlərinin əlavə yükə çevrildiyini dərk etdi. Bu isə, əslində, Azərbaycanın və cənab İlham Əliyevin illərdir irəli sürdüyü tezis və əsaslandığı arqumentlərin özünü doğrultması, daha doğrusu, Vaşinqtonun bu reallıqları qəbul etməsi demək idi. Hazırda ABŞ-də bu istiqamətdə başlanan araşdırmalar, cənab Trampın bu sahədə qəti mövqeyi fonunda Azərbaycanın da bu prosesə öz araşdırmaları ilə yardım etməsi ümumbəşəri dəyərlərə töhfə kimi qiymətləndirilməlidir. Çünki USAID uzun illərdir beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplərə, beləliklə, ümumbəşəri dəyərlərə zidd davranışlar sərgiləyib. Prezident İlham Əliyevin ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forumda ifadə etdiyi kimi, Azərbaycanın Baş Prokurorluğu USAID-in qanunsuz fəaliyyətini araşdırır, anti-Azərbaycan fəaliyyətinin miqyasını, hökumətimizə xələl gətirmək, daxili işlərimizə müdaxilə etmək və qarışmaq səyləri ilə bağlı təkzibedilməz faktlar üzə çıxarılır və sənədlər hazır olan kimi Tramp administrasiyasına təqdim ediləcək. Heç şübhəsiz ki, bu, korrupsiyaya uğramış USAID və onun korrupsiyalaşmış rəhbərləri barəsində ciddi tədbirlər görülməsi üçün önəmli, bəlkə də, ən effektiv və köklü dəlillərdən biri kimi çıxış edəcək".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan qlobal proseslərin subyekti kimi mövqeyini möhkəmləndirir

**"Azərbaycan qlobal məsələlərin müzakirəsi üçün mühüm platforma kimi mövqeyini möhkəmləndirir. Bunu aprelin 9-da Bakıda ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumunun nüfuz dairəsi də təsdiq edir. Əlamətdar haldır ki, 80-dən çox nüfuzlu beynəlxalq ekspertin və dünyanın 40-dan çox ölkəsindən analitik mərkəzlərin nümayəndələrinin iştirak etdiyi tədbirin ilk günü aprelin 8-də Xankəndidəki Qarabağ Universitetində keçirildi. Bakıda işini davam etdirən forumda Prezident İlham Əliyev çıxış edərək ölkə və regional gündəliyə dair mühüm fikirlər səsləndirdi, beynəlxalq siyasətin ən aktual problemlərinə də münasibətini açıqladı".**



Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Rəşad Mahmudov deyib.

ADA Siyasət Forumunun artıq yeddinci ildir keçirildiyini bildirən deputatın sözlərinə görə, forumda təhlükəsizlik, Azərbaycanın regionda sülhün bərqərar olmasında səyləri, dünyada gedən proseslər və təbii ki, Qarabağ ətrafında vəziyyət, 44 günlük müharibədə tarixi qələbədən sonra - işğaldan azad edilmiş torpaqlarda aparılan genişmiqyaslı bərpa işləri ilə bağlı geniş müzakirələr aparılır. İştirakçılar, həmçinin enerji, nəqliyyat dəhlizləri, Azərbaycanın ikitərəfli və çoxtərəfli əlaqələri, dünya miqyasında, həmçinin beynəlxalq təşkilatlardakı yeri məsələlərinə xüsusi maraq göstərirlər. Budəfəki forum yeni dünya nizamı, hazırda dünyada baş verən transformasiyalar mövzusuna həsr olundu. Forumda Prezident İlham Əliyev əhəmiyyətli mövzulara toxundu və mühüm mesajlar verdi.

"Dövlətimizin başçısı çıxışında postmüharibə dövrünün reallıqları və bəzi qeyri-regional ölkələrin sülhə maneə yaradan addımlarından danışdı. Prezident İlham Əliyev xüsusilə qeyd etdi ki, 2020-ci ildən demək olar, beş ilə yaxın vaxt keçsə də, Azərbaycan hələ də tamamilə əsassız spekulyasiya və ittihamlarla üzləşir. Azərbaycan Prezidentinin sözlərinə görə, belə bir təbliğatın aparılmasında daha çox Fransa "fərqlənir". Bundan başqa, Avropa İttifaqındakı ermənipərəst qüvvələr də bu spekulyasiyaları davam etdirirlər. Prezident Azərbaycanın belə bir niyyəti olmadığını bir daha vurğulayaraq bildirdi ki, Bakı regionda davamlı sülhün bərqərar olmasında maraqlıdır. Dövlətimizin başçısı diqqətə çatdırdı ki, Azərbaycan İrəvanın hərəkətlərini yaxından izləyir və müharibədən sonrakı vəziyyətin inkişafı əsasən Ermənistandan asılıdır.

Prezident İlham Əliyevin çıxışında diqqətçəkən məqamlardan biri də COP-29 zamanı Azərbaycanın Qlobal Cənub ilə Qlobal Şimal arasında ünsiyyətin qurulmasında əldə etdiyi nailiyyətlə bağlı oldu. O bildirdi ki, COP zamanı karbon bazarının funksional edilməsi ilə bağlı nailiyyət məhz Azərbaycanda əldə olundu və bu, ölkəmizə olan etimad sayəsində baş verdi. Azərbaycan Qlobal Cənub ilə Qlobal Şimal arasında ünsiyyətin qurulmasına nail oldu, eyni zamanda bizim səylərimizə Afrika dövlətlərindən də müsbət reaksiya verildi. Təsadüfi deyil ki, Afrika dövlətləri ilə sıx əlaqələrin qurulması siyasəti artıq müəyyənləşdirilib", - deyə Rəşad Mahmudov vurğulayıb.

Prezident İlham Əliyevin çıxışında ABŞ ilə münasibətlərə də toxunduğunu deyən deputat bildirib: "Hazırda ABŞ ilə çox güclü münasibətlərin Cənubi Qafqaz regionu üçün vacib olduğunu vurğulayan dövlətimizin başçısı əlavə etdi ki, Ağ Evin indiki siyasəti daha çox Amerikanın milli maraqlarına əsaslanacaq. Azərbaycanın Cənubi Qafqazın aparıcı ölkəsi, Qlobal Cənubun bir hissəsi olduğunu xatırladan Azərbaycan lideri qeyd etdi ki, ölkəmizin Qoşulmama Hərəkatında güclü mövqeyi, Mərkəzi Asiya ilə yaxşı əlaqələri var. Azərbaycan Birləşmiş Ştatlar üçün çox mühüm tərəfdaş ola bilər.

Əlbəttə, dövlətimizin başçısı Türkiyə ilə strateji münasibətlərimizdən və Yaxın Şərq regionu kontekstində Suriya ilə əlaqələr barədə də danışdı. Hazırda Suriyada sabit və dayanıqlı idarəçilik yönündə işlər aparılır və bu proses regional geosiyasi rəqabəti də gücləndirir. Regional gərginliyin müharibə hədələri ilə müşayiət olunması Yaxın Şərq üçün uzunmüddətli problemlərin qalacağını vəd edir. Bunların fonunda Türkiyə və İsrail arasında da münasibətlərin sonrakı inkişafı Azərbaycanı da maraqlandırır. Çünki hər iki ölkə ilə güclü strateji əlaqələrimiz var. Qardaş Türkiyə hərbi-strateji müttəfiqimizdir, İsrail ilə də güclü tərəfdaşlıq əlaqələri qurulmuşdur. Bu baxımdan, hər iki ölkənin münasibətlərinin yaxşılaşması Bakının da maraqlarına uyğundur. Prezident İlham Əliyev çıxışında Türkiyə və İsrail arasında münasibətlərin normallaşmasında birbaşa iştirak etdiyini açıqlayaraq diqqətə çatdırdı ki, Azərbaycan Ankara-Təl-Əviv arasında cari vəziyyətin razılaşma həddinə çatması üçün formullar arayır.

Bir sözlə, geosiyasi mövqeyinə, enerji resurslarına və fəal xarici siyasətinə görə yeni dünya düzəninin formalaşmasında mühüm rol oynayan Azərbaycan əsas oyunçuya çevrilir. Bakının fəal siyasəti Azərbaycanın dünya nizamının gələcəyinə təsir göstərə bilən qlobal proseslərin subyekti kimi mövqeyini möhkəmləndirir. Dövlətimizin başçısının forumda səsləndirdiyi fikirlər, beynəlxalq gündəliyin bir sıra məsələlərlə bağlı fikirlərinə göstərilən böyük maraq Azərbaycanın və onun liderinin dünya miqyasında nüfuza malik olduğunu təsdiqləyir. Bu, həm də ölkəmizin regional siyasi və iqtisadi təhlükəsizliyin möhkəmlənməsinə töhfə verən strateji aktor kimi rolunu daha da gücləndirir".







# Haqlı tələb, qətiyyətli mövqe

## Dünya növbəti dəfə Prezident İlham Əliyevin ədalətli çağırışlarına şahidlik etdi

**Azərbaycan diplomatiya və xarici siyasət müstəvisində elə bir statusa yiyələnib ki, tərəfdaşlarla münasibətlər və ikitərəfli əməkdaşlıqla yanaşı, regional əlaqələrə də xüsusi diqqət yetirir. Yeni dövrün strateji məqsədləri isə aydındır. Bu məqsədlər sırasında ölkəmizin müstəqil siyasət kursu mühüm yer tutur.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forum son günlərin ən əhəmiyyətli və maraqlı yeniliklərindən oldu. Belə beynəlxalq tədbirlərə evsahibliyi etməsi, aparılan müzakirələr Azərbaycanın öz mövqelərini dünya ictimaiyyətinə təqdimatına imkan yaradır.

"Yeni dünya nizamına doğru" mövzusunda keçirilən tədbirdə də müxtəlif ölkələrin nümayəndələri, ekspertlər, diplomatlar, akademiklər bir araya gəlmişdilər. Bu, istər siyasi, istər iqtisadi, istərsə də akademik sahədə gələcək əməkdaşlıq üçün geniş imkanlar yaradır. Belə mövzular dünya miqyasında aktuallığını saxlayan və dəyişən qlobal trendlərlə bağlı məsələlərdir. Forumlar vasitəsilə iştirakçılar müxtəlif baxış bucaqlarını bölüşür, yeni konseptlər irəli sürürlər. Azərbaycan üçün prioritet olan dövlətimizin ərazi bütövlüyü, suverenliyi, regionun enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri kimi mövzular beynəlxalq gündəmdə də xüsusi yer tutur. Ona görə də belə tədbirlər müvafiq məsələlərin beynəlxalq səviyyədə daha çox dəstək qazanması baxımından faydalıdır.

Forumun ADA Universitetində keçirilməsi isə təsadüfi deyil. Bu yüksəksəviyyəli təşkilatçılıq həm universitetin beynəlxalq aləmdə nüfuzunu gücləndirir, həm də Azərbaycanı intellektual və akademik dialoqlar üçün mühüm platforma kimi təqdim edir.

### Sülh mümkündür, Ermənistan buna doğru real addımlar atsa

Müzakirələr hər zamankı kimi yenə kifayət qədər səmərəli keçdi, Azərbaycan Prezidenti İlham Əliyev təxminən üç saat ərzində ayrı-ayrı ölkələrin təmsilçilərinin ünvanladıqları sualları cavablandırdı, müxtəlif məsələlərlə bağlı dövlətimizin mövqeyini ortaya qoydu.

Dövlətimizin başçısının suallara cavablarında ən diqqətçəkən məqamlardan biri Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra regionun inteqrasiyası Ermənistanla münasibətlərin inkişafı ilə bağlı idi. Bu məsələyə münasibətlə bağlı bir daha nəzərə çatdırıldı ki, Ermənistanla sülh prosesi və Cənubi Qafqazın inteqrasiya olunmamış vəziyyəti hazırda ön plandadır. Sülh sazişi imzalanmadıqca ciddi əməkdaşlığın baş verməsi mümkün görünməsə də, Azərbaycan qarşılıqlı etimadın artırılması üçün mərhələli və praqmatik addımlara açıqdır. Ermənistan sülh sazişinin imzalanması üçün Azərbaycanın irəli sürdüyü bəlli şərtləri qəbul etməlidir. Bununla belə, hazırda Ermənistanda həm aktiv, həm də passiv revanşist qruplar mövcuddur və onlar yenidən hərbi qarşıdurma riski yaratmaqdadırlar. Ermənistanın bəzi dövlətlərdən pulsuz ölümcül silahlar əldə etməsi də gələcəkdə gərginlik ehtimalını artırır. Eyni zamanda, münaqişə başa çatdığı halda Minsk qrupunun hüquqi olaraq ləğv edilməməsi meyli Ermənistanın niyyətlərinə dair suallar doğurur. Azərbaycan Prezidenti dedi: "Mən onları iki qrupa bölərdim: 30 illik işğala görə məsuliyyət daşıyan fəal revanşistlər və guya konstruktiv yanaşma sərgiləməyə cəhd göstərən, lakin, əslində, eyni revanş və intiqam hissi ilə yaşayan bugünkü hökumət olan passiv revanşistlər. Onların ölümcül silahları almasının səbəbi də budur. Onlar bəzi silahları pulsuz əldə edirlər. Bu, onların Azərbaycana qarşı yeni hərbi əməliyyatları planlaşdırmalarının səbəbidir. Bu səbəbdən onlar ATƏT-in Minsk qrupunun buraxılmasına dair bizim legitim təklifimizi qəbul etmək istəmirlər".

Ölkəmizin rəhbərinin regional inteqrasiya ilə bağlı suala cavabından həm beynəlxalq auitoriyanın, həm bütün region dövlətlərinin, həm də konkret olaraq Ermənistanın çıxarmalı olduğu əsas nəticələr budur ki, Azərbaycan regional proseslərdə passiv yox, fəal və etibarlı tərəfdaşdır. Region ölkələri arasında sıx qarşılıqlı əməkdaşlıq üçün konkret mexanizmlər və platformalar var, seçim onların əlindədir. Ermənistanla sülh də mümkündür, lakin rəsmi İrəvan buna doğru real addımlar atmalıdır.

### Azərbaycan ABŞ ilə balanslı və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq istəyir

Prezident İlham Əliyevin suallara cavabları Azərbaycan-ABŞ münasibətləri xüsusunda da son dərəcə açıq və detallı baxışı əks etdirdi. Dövlətimizin rəhbəri belə bir mövqeyi ifadə etdi ki, ABŞ-də respublikaçı administrasiyalar dövründə - xüsusilə də Prezident Corc Buş və Donald Trampın zamanında - Azərbaycanla münasibətlər daha sabit, etibarlı və strateji xarakter daşıyıb. Bu dövrlərdə Azərbaycanın Əfqanıstan və İraqda həyata keçirilən antiterror fəaliyyətinə dəstəyi və logistik rolu da xüsusi əhəmiyyətə malikdir. Bu, Prezident Buş hökuməti tərəfindən yüksək qiymətləndirildi. Bayden-Blinken komandası isə ölkəmizin maraqlarına zidd siyasətlə münasibətləri böhran həddinə çatdırıb. Azərbaycana qarşı "907-ci düzəliş"in yenidən tətbiqi, Ermənistanın birtərəfli şəkildə dəstəklənməsi, bu ölkəyə müxtəlif istiqamətlərdə, o cümlədən hərbi yardımlar, USAID-in təxribatçı fəaliyyəti və ABŞ Dövlət Departamenti tərəfindən Azərbaycana qarşı yönləndirilən media kampaniyaları buna nümunədir. Dövlətimizin başçısı çıxışında bildirdi ki, bizim Bayden-Blinken komandasına etimad səviyyəmiz sıfra bərabər idi: "Münasibətlərimiz dərin böhran içərisində idi. …Qafqazda ayırıcı xətlər çəkmək, Azərbaycanı təcrid etmək, bizə qarşı ayrı-seçkilik etmək, Azərbaycan haqqında şayiələr yaymaq cəhdləri oldu. Bayden-Blinken komandası hakimiyyətdən gedən kimi, Azərbaycana qarşı bütün bu insinuasiyalar dərhal dayandırıldı".

Cənab İlham Əliyevin Azərbaycan-ABŞ münasibətləri ilə bağlı suala cavabından belə bir qənaət hasil oldu ki, artıq Tramp administrasiyası ilə ilkin təmaslar başlayıb və münasibətlərin normallaşması istiqamətində irəliləyişlər var. Digər təfərrüatları ilə birgə bu cavabın mahiyyəti belə bir mesaj verir ki, Azərbaycan ABŞ ilə balanslı və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq istəyir, amma birtərəfli təzyiqləri də əsla qəbul etmir.

### Enerji diplomatiyasının lideri

Azərbaycan Prezidentinin forum iştirakçılarının suallarına cavabları ölkəmizin müasir enerji diplomatiyasındakı lider mövqeyinin və rolunun müəyyənləşdirilməsi, enerji sahəsindəki imkanlarının təqdimatı, həm Avropaya, həm daha geniş beynəlxalq ictimaiyyətə bir neçə əsas strateji tezisin ünvanlanması baxımından da böyük maraq doğurur. Dövlətimizin rəhbəri konkret faktlar əsasında Azərbaycanın etibarlı və strateji enerji tərəfdaşlığını bir daha diqqətə çatdırdı. Hazırda həyata keçirilən layihələr, o cümlədən "yaşıl enerji" layihələri sayəsində yaranacaq yeni potensiala diqqət yönəltdi. Azərbaycanın texniki, kommersiya və strateji baxımdan Avropanın enerji təhlükəsizliyi üçün əsas iştirakçı rolu qeyd edildi. Eyni zamanda bu istiqamətdə münasibətlərin gələcəkdə daha da nizamlı şəkildə inkişafı üçün Avropa qarşısında iki əsas tələbi aktuallaşdırdı. Bunlardan birincisi, maliyyələşmə siyasətinə düzəlişdir. Belə ki, bəzi layihələrə dəstəyi dayandırmış Avropanın bir çox maliyyə təsisatları öz yanaşmalarını yenidən nəzərdən keçirməlidirlər. Avropa daha çox qaz istəyirsə, infrastrukturun genişlənməsi üçün kredit imkanlarını açmalıdır. Faydalı qazıntılara tətbiq edilən embarqo aradan qaldırılmalıdır.

Digər bir məsələ isə uzunmüddətli müqavilələrlə bağlıdır. Çünki 2050-ci il karbon neytrallığı hədəfi ilə qısa dövr qaz tələbatı arasında ziddiyyət mövcuddur. Bu isə haqlı olaraq "Əgər qazı bizdən əldə etməsəniz, onda mən niyə sərmayə yatırmalıyam və ya nəyə görə sizin bazarınıza əsas bazar kimi baxmalıyam?" arqumentini aktuallaşdırır. Avropa bazarı ölkəmiz üçün hələ də əsas prioritet olsa belə, onun qeyri-müəyyənliyi Azərbaycanı Şərq və Cənub bazarlarına baxmağa sövq edir. Buradan çıxan əsas nəticə budur ki, əgər Avropa İttifaqı uzunmüddətli müqavilələr imzalamazsa, Azərbaycan öz qaz resurslarını başqa istiqamətlərə yönəldə bilər. Eyni zamanda Avropa Komissiyasındakı bəzi dairələr də Qafqazı sevdiklərinə və sevmədiklərinə bölməyə çalışaraq münasibətlərə xələl gətirməməlidirlər: "Bəli, qanunvericilik, qaydalar, prosedurlar, qarşılıqlı bağlantılar və bütövlükdə, qiymət baxımından, Avropa İttifaqının bazarı premium hesab edilir. Lakin başqa bazarlara nəzər salsaq, qonşuluğumuzda Azərbaycan qazına tələbat var. Biz təkcə Qərbə deyil, həmçinin Şərqə və Cənuba baxa bilərik. Beləliklə, bu, Azərbaycanın qaz sənayesinin gələcək inkişafı, Avropanın enerji təhlükəsizliyi üçün vacibdir", - Azərbaycan Prezidenti forumdakı çıxışında qeyd etdi.

### Rusiya-Ukrayna münaqişəsinə gerçək yanaşma

Cənab İlham Əliyev Rusiya-Ukrayna arasındakı müharibə ilə bağlı da Azərbaycanın mövqeyini ortaya qoydu. Bir daha açıq şəkildə bildirdi ki, Azərbaycan Ukraynanın ərazi bütövlüyünü, suverenliyini tanıyaraq dəstəkləyir. Ölkəmiz özü də uzun illər ərzində işğala məruz qaldığı üçün bu, ardıcıl və prinsipial mövqedir. Azərbaycan Prezidentinin iki ölkə arasında atəşkəslə bağlı realist yanaşması da böyük maraq doğurur və müharibə ilə bağlı populist çağırışlardan fərqli olaraq diqqəti real təhlükəsizlik və hərbi strategiya məsələlərinə cəlb edir. Çünki reallıq bundan ibarətdir ki, hazırda sülh çağırışları əsasən ritorik səciyyə daşıyır və atəşkəsin hansı anlamı ifadə etməsi, qoşunların təmas xəttinin necə qorunması, burada beynəlxalq sülhməramlıların olub-olmaması, atəşkəsin pozulması hallarına yol verilib-verilməməsi və digər bu kimi suallar ətrafındakı qeyri-müəyyənliyi ortadan götürmür.

İki ölkə arasında real sülh üçün hərbi və siyasi şərtlərin yetərincə təmin olunması lazımdır. Cənab İlham Əliyev Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı dövründə Azərbaycan-Ermənistan təcrübəsi əsasında Ukrayna ilə Rusiya arasında dayanıqlı sülhün necə mümkün olacağına dair ciddi suallar qoydu və belə bir həqiqəti hər kəsin diqqətinə çatdırdı ki, real nizam-intizamın və siyasi iradənin olmadığı mühitdə sülh möhkəmlənmir. "Əfsuslar olsun ki, müharibələr yekun kapitulyasiya aktı olanda tamamlanır. Bizim Xorvatiyadan olan dostumuzun qeyd etdiyi kimi, onlar öz ərazisini azad etdi, sərhədə çıxdı və dayandı. Biz də eyni addımı atdıq. Öz sərhədimizə çıxıb dayandıq. Real dünyada müharibə bu cür bitir", - Azərbaycan Prezidenti bu məsələyə münasibətini bildirdi.

### Türk Dövlətləri Təşkilatının gələcəyinə baxış

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının gələcək fəaliyyət perspektivləri barədə fikirlərini də bölüşdü, çox güman ki, gələn ay TDT ölkələrinin dövlət başçılarının ikinci qeyri-rəsmi Zirvə görüşünün keçiriləcəyinin, sonra isə Azərbaycanda rəsmi Zirvə toplantısının təşkil ediləcəyinin anonsunu verdi: "Türk dünyasında ölkələr arasında münasibətlər bizim üçün çox vacibdir. Bizim üçün bu, xarici siyasətimizin əsas prioritetlərindən biridir. Bizi tarix, etnik köklər, dil oxşarlıqları, mədəniyyət və adət-ənənələr birləşdirir və biz təşkilatı daha güclü və nəticəyə yönələn təşkilat kimi görmək istəyirik. Bu məqsədlə Azərbaycan əlindən gələni edir. Düşünürəm ki, üzv dövlətlər arasında qarşılıqlı fəaliyyət baxımından çox yaxşı mühit var. Mən üzv dövlətlər arasında ikitərəfli qaydada bütün bunları yaxından izləyirəm və görürəm ki, həm ikitərəfli, həm çoxtərəfli qaydada heç bir narazılıq yoxdur. Eyni zamanda düşünürəm ki, hamımızın səyləri bugünkü sürətlə dəyişən dünyada kifayət deyil".

Azərbaycan Prezidenti TDT-ni mühüm qlobal iştirakçıya çevirmək fürsətini əldən buraxmamaq üçün yubanmamalı olduğunu vurğuladı: "…Biz daha çox çıxış etməli, daha fəal olmalı və qlobal məsələlərdə öz sözümüzü deməliyik. Bu halda yenə də coğrafiya, əhali nəzərə alınmalıdır. Hələ hərbi imkanları buraya əlavə etsək, hər şey aydın olar".

Dövlətimizin başçısının fikrincə, Türk Dövlətləri Təşkilatı ən azı Avrasiyanın nəhəng sahəsində qərarların qəbul edilməsi mərkəzinə çevrilməlidir.

### Görmək istədiyimiz Cənubi Qafqaz

Dövlət rəhbərimiz qonşu Gürcüstanla əlaqələrin strateji mahiyyətinə də diqqət yönəltdi. Hər iki ölkənin birlikdə Cənubi Qafqazı strateji əhəmiyyətli bölgəyə çevirdiklərini vurğuladı. Gürcüstanın yeni Baş nazirinin və Prezidentinin ilk xarici səfərlərinin məhz Azərbaycana olması da ölkələrimiz arasındakı münasibətlərin strateji səviyyəsini nümayiş edirən maraqlı faktlar, qarşılıqlı sadiqliyin, dostluğun simvoludur. Bu baxımdan, Avropa İttifaqının regionun reallıqlarını və onun əsas aktorlarını görməzliyə vurması, Orta dəhlizlə bağlı müzakirələrdə Gürcüstanı tamamilə nəzərə almaması, bunun qarşılığında Ermənistana yönəlmiş simpatiyası və onu dəhliz mövzusuna süni şəkildə daxil etməsi qəbuledilməz davranışdır. Ermənistan-Türkiyə və Ermənistan-Azərbaycan sərhədlərinin açılması məsələsi də Avropanın işi deyil. Avropa bu proseslərdən uzaq durmalıdır: "Bu gün biz avropalılara Mərkəzi Asiya ilə əlaqə qurmağa kömək edən müxtəlif imkanları yaratmışıq. Gürcüstanın dəniz limanları, Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycanın Ələt Limanı, Xəzər daşımaları - bütün bunlar nəqliyyat sahəsi üçün əhəmiyyətlidir. Bütün bunlar haqqında danışılmır, bu layihələrə nə qədər vəsait yatırdığımız gözardı edilir. Yalnız Türkiyə və Ermənistan, Ermənistan və Azərbaycan arasında sərhədlərin açılması haqqında danışılır. Bunun Avropaya nə aidiyyəti var? Bu, onların işi deyil. Türkiyə-Ermənistan, Ermənistan-Azərbaycan münasibətlərində Avropa İttifaqı bu işlərdən nə qədər uzaq dursa, bir o qədər yaxşıdır".

Cənab İlham Əliyevin fikrincə, region ölkələrinin bir-birilə danışması üçün vasitəçilərə ehtiyac yoxdur. 28 illik Minsk qrupu təcrübəsi arzuolunmaz vasitəçiliyin iflası olub. Bu məsələ ilə bağlı dövlətimizin başçısı dedi: "Ona görə biz kiminsə vasitəçi olmaq istədiyini eşidəndə bir az narahat oluruq. Gəlin bunu özümüz edək, biz bu regionda yaşayırıq. Azərbaycan olaraq biz Avropa təsisatları ilə yaxşı əlaqələrə malik olmaq istəyirik, xüsusilə də Avropa Komissiyası ilə. Ancaq bizim maraqlarımızın qurban verilməsi hesabına yox. Onların davamlı olaraq bizim daxili işlərimizə qarışması, cəmiyyətimizin müxtəlif seqmentlərinin maliyyələşdirilməsi, gənclərimizin beyinlərinin yuyulması, regionumuzda yaşayan xalqların zəhərlənməsi - bütün bunlar bizə lazım deyil. Budur bizim görmək istədiyimiz Cənubi Qafqaz". Daha sonra vurğulandı ki, Cənubi Qafqazın aparıcı dövlətləri olaraq Azərbaycan və Gürcüstan bu işdə məsuliyyəti öz üzərlərinə götürərək əməkdaşlıq etməlidirlər. Əlbəttə, burada Ermənistan da var və o, ancaq Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı konstitusiyasına dəyişiklik edəcəyi təqdirdə bu prosesə qoşula bilər. Bu vaxt biz regionumuzda uzunmüddətli proqnozlaşdırıla bilən vəziyyətdən bəhs edə bilərik.

Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusundakı beynəlxalq forumdakı çıxışı, qlobal güc balanslarının dəyişdiyi bir dövrdə ölkəmizin beynəlxalq münasibətlərə baxışını və öz mövqeyini ifadə etməsi mühüm əhəmiyyət daşıyır. O, ədalətə əsaslanan beynəlxalq sistemə ehtiyac olduğunu vurğulamaqla, regional sabitlik, enerji təhlükəsizliyi və sülh təşəbbüslərində Azərbaycanın rolunu ön plana çıxardı. Bu çıxış, ölkənin artan geosiyasi əhəmiyyətinin və müstəqil xarici siyasət xəttinin bir daha nümayişi oldu.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*



# İlham Əliyev barışdırıcı siyasət həyata keçirir

## Dövlətimizin başçısı Azərbaycanın dostları arasında hansısa gərginliyin olmasını istəmir



**"Azərbaycan beynəlxalq münasibətlər sistemində güclü və nüfuzlu dövlət kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır".**

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. O bildirib ki, milli inkişaf modelinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir. Həyata keçirilən səmərəli xarici siyasət kursu dövlətimizin qüdrətini artıran əhəmiyyətli faktor kimi çıxış edir. Nəzərə almaq lazımdır ki, müasir dövrdə milli dövlətlərin beynəlxalq münasibətlər sistemində mövqeyini möhkəmləndirən, nüfuzunu artıran başlıca strateji amil həyata keçirilən xarici siyasət kursunun səmərəliliyidir. Bu kontekstdə qeyd edə bilərik ki, çoxşaxəli, tarazlaşdırılmış xarici siyasət kursuna malik olan Azərbaycan Cənubi Qafqaz regionunun lider dövləti olmaqla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. "Azərbaycanın xarici siyasəti məhz müstəqillik prinsipinə əsaslanır, milli maraqların qorunmasına xidmət edir. Respublikamız xarici siyasi əlaqələrini, iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Cənubi Qafqazın lideri olan Azərbaycan özünün çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyası ilə həm ikitərəfli münasibətlər kontekstində, həm də çoxşaxəli əlaqələr fonunda yerləşdiyi regionun inkişafına mühüm töhfələr verir, həmçinin regionalmiqyaslı, qlobal xarakterli əməkdaşlıqlar platformasının mərkəzi oyunçusu rolunu oynayır. Məhz bunun nəticəsində də dünyada Azərbaycanın dostları artmaqdadır. Bir çox ölkələr Azərbaycanı dost və etibarlı tərəfdaş hesab edir. Bu etimad sayəsində Azərbaycan bəzi ölkələr arasında yaranmış problemlərin həllində vasitəçilik edir. Bu vasitəçilik isə müsbət nəticələr verir", - deyə Sevinc Fətəliyeva əlavə edib.

Hazırda İsrail və Türkiyə arasında yaranmış problemin həllində Azərbaycanın vasitəçi ola biləcəyini vurğulayan deputat xatırladıb ki, Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda iştirakçıların suallarını cavablandıran zaman Azərbaycanın bu məsələdə yardım etməyə səy göstərdiyini deyib. Nəzərə alaq ki, hər iki ölkə Azərbaycanın dostudur. Ona görə də dövlətimiz öz dostlarının arasında hansısa gərginliyin olmasını istəmir və barışdırıcı siyasət həyata keçirir.

Sevinc Fətəliyeva qeyd edib ki, Azərbaycan hələ 2010-cu ildə İsrail ilə Türkiyə arasında yaranmış gərginliyin aradan qalxmasında vasitəçilik edib və bu vasitəçilik kifayət qədər uğurlu olub: "İnanırıq ki, bu dəfə də belə olacaq. Bu yanaşma Azərbaycanın sülhpərvər, barışdırıcı mövqedə olmasından irəli gəlir. Dövlətimizin başçısı bu mövzu ilə bağlı forumda bildirib: "İlk böhran zamanı biz fəal rol oynadıq ki, onların mövqeyini bir-birinə yaxınlaşdıraq. Hər iki ölkə Azərbaycanın yaxın dostudur. Türkiyə ilə 2021-ci ildə Şuşa Bəyannaməsini imzalamışıq və rəsmi olaraq müttəfiqik. İsraillə də qarşılıqlı dostluq əlaqələri müxtəlif çətin vəziyyətlərdə uzun illərdir özünü büruzə verib. Ona görə də tərəflər arasında olan hər hansı anlaşılmazlıq bizi narahat edir". Təbii ki, dostlarımızın öz aralarındakı problemlərinin həllində Prezident İlham Əliyevin şəxsi nüfuzu, liderlik keyfiyyəti və dostluq münasibətləri mühüm rol oynayır. Bu baxımdan, hesab edirəm ki, dövlətimiz növbəti dəfə bu missiyanı uğurla yerinə yetirəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bağanıs Ayrımda erməni hərbçilərin yandıraraq qətlə yetirdikləri 39 günlük körpə ilə bağlı videomateriallar məhkəmədə nümayiş etdirilib

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 11-də davam etdirilib.**













AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

Təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iclasda iştirak ediblər.

Hakim Zeynal Ağayev əvvəlcə prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxslər əvvəlcə sərbəst ifadə verib, sonra isə dövlət ittihamını müdafiə edən prokurorlar, zərərçəkmiş şəxslərin nümayəndələri və müdafiəçilər tərəfindən onlara ünvanlanmış sualları cavablandırıblar.

Zərərçəkmiş şəxs Əhməd Əhmədov ifadəsində Xankəndidə təhsil aldığı məktəbdə sinifdə 30 nəfər şagirdin oxuduğunu, onların 28-nin erməni millətindən, 1-nin rus və təkcə özünün azərbaycanlı olduğunu deyərək bildirib: "Təhsil müddətində, - 1-ci, 2-ci, 3-cü sinifləri bir o qədər xatırlamıram, - mən azərbaycanlı olaraq dəfələrlə təhqirlərə məruz qalmışam. Hansısa kiçik münaqişə də olanda bizə "tork, tork" deyirdilər. Onlar türkə "tork" deyirdilər. Biz azərbaycanlıları dəfələrlə təhqir edir, dözümsüzlük halı yaradırdılar.

Hamı bilir ki, şagird evdə nə eşidirsə, gəlib onu məktəbdə sinif yoldaşları ilə bölüşür. 1986-cı il idi, mən 8-ci sinifdə oxuyurdum. Armen Beqlaryan adlı sinif yoldaşım var idi, arxa partada otururdu. Gördüm parta yoldaşına deyir ki, bəs "Qorbaçov bizə söz verib, Ermənistana qoşuluruq. İlk dəfə o zaman bu siyasi məsələləri eşitdim, amma elə bil dünən eşitmişəm".

Zərərçəkmişin sözlərinə görə, 1988-ci ilin yanvarından azərbaycanlılara qarşı pis münasibət açıq müstəviyə keçib. O əlavə edib: "Məsələn, azərbaycanlılar çörək almağa gedirdilər, amma onlara çörək vermirdilər, hər yerdə sıxışdırırdılar. Həmin ilin fevralında eşitdik ki, böyük mitinq olacaq. Deyirdilər ki, "biz Azərbaycandan ayrılırıq və Ermənistana qoşuluruq". Biz bilirdik ki, mitinqdən sonra ermənilərdən nəsə təxribat gözlənilir. Ermənistandan da adamlar gətirmişdilər. O vaxt onlar "saqqallı", "boevik" adlandırılırdılar. Eşidirdik ki, evlərimizi dağıdacaqlar, yəni o söz-söhbət var idi. Ondan qabaq da azərbaycanlıların evlərini daşlayırdılar, şüşələrini sındırırdılar. Biz ikinci mərtəbədə yaşayırdıq. Birinci mərtəbədə Karo adlı qonşumuz var idi. O, Əsgəranda yanğınsöndürmə xidmətində çalışırdı. Karo və qardaşı Ararat bu proseslərdə ən fəal iştirak edənlərdən idilər.

Həmin vaxt mənim böyük bacım ailə həyatı qurmuşdu və Ağdam şəhərində yaşayırdı. Fevralın 20-də Ağdamda bacımgildə idim. Fevralın 21-də Ağdamdan Xankəndiyə avtomobillə qayıdanda Əsgəran rayonunun girişindəki körpünün üstündə bir səs eşitdim. Məlum oldu ki, bizə atəş açırlar. Orada qolumdan güllə yarası aldım. Həmin vaxt maşında məndən və sürücüdən başqa, daha iki nəfər var idi. Sonradan öyrəndim ki, onların adı Əli və Bəxtiyar imiş. Onlar çox ağır şəkildə can verirdilər. Sürücü məni Ağdam xəstəxanasına apardı. Orada həkimlər dedilər ki, gülləni çıxara bilərik, amma qolunuz işləməyəcək. Hadisələri qabaqlayaraq deyim ki, mənim sağ qolumun biləyi təxminən iki ildən artıq işləməyib. Oradan Bərdə şəhərinin xəstəxanasına gəldik və burada da həkimlər eyni sözü dedilər. 1988-ci il fevralın 23-də Bakıda Neyrocərrahiyyə xəstəxanasında məni əməliyyat etdilər, gülləni çıxardılar. Sonradan eşitdim ki, bizə avtomatla atəş açan Əsgəranda yaşayan milis işçisi olub".

Zərərçəkmiş şəxs baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandırarkən bildirib ki, 1988-ci ilə qədər də Xankəndidə ermənilər tərəfindən azərbaycanlılara münasibət müsbət olmayıb. O, Xankəndidə hər addımbaşı azərbaycanlıların incidildiyini vurğulayıb və əlavə edib: "Məsələn, yeni gələn azərbaycanlıların heç birini qeydiyyata almırdılar. Sonradan gələn azərbaycanlılara ev tikmək üçün sahə vermirdilər, yaxud da kimsə hansı yolla bir əmlak əldə edirdisə, onları qeydiyyata almırdılar. Bütün bunları Azərbaycan əhalisinin sayını az göstərmək üçün edirdilər.

"Neftçi" və "Ararat" futbol klubları arasında keçirilən oyundan sonra küçəyə çıxmaq olmurdu. İçirdilər, təhqiramiz ifadələr işlədirdilər, şüşələri qırırdılar.

1987-ci ilin sentyabrından bir epizod danışım. Azərbaycanlı ailə var idi, yuxarı məhəllədə yaşayırdı. Həmin ailənin oğlunu çörək almağa gedəndə iki erməni döyüb komaya salmışdı, bir aydan çox komada qaldı. Ermənilərin biri içkili olmuşdu, o biri yox".

O, sonradan kütləvi tədbirlərdən birində ona qarşı ayrı-seçkilik edilməsi və təzyiq göstərilməsindən də danışıb: "Xankəndidə mərkəzi stadionda tədbir var idi. Yeddinci, yaxud səkkizinci sinifdə oxuyurdum. Mən də oraya getdim. Təxminən 2 min şagird var idi. Üz cizgilərinə görə azərbaycanlıların çoxunu tanıyırdılar. Tədbir zamanı 2 minə yaxın şagirdin arasında ermənilər mənə fiziki təzyiq göstərdilər və təhqir edib tədbir keçirilən yerdən kənarlaşdırdılar".

Ə.Əhmədov hazırda Xankəndi şəhərində işlədiyini və yaşadığını bildirib.

Sonra zərərçəkmiş Nazeykə Atakişiyeva ifadə verib və sualları cavablandırıb. 1954-cü ildə Xankəndi şəhərində anadan olmuş və orada yaşamış N.Atakişiyeva ermənilərin Xankəndidə yaşayan azərbaycanlılara münasibətinin yaxşı olmadığını, 1988-ci ilin fevralından isə bu münasibətin çox pis şəkildə dəyişdiyini bildirib.

N.Atakişiyeva Xankəndidə yerləşən Qarabağ İpək Kombinatında toxucu işlədiyini, Robert Köçəryanın həmin kombinatda dəzgahların yağlanması işinə baxdığını, sonradan komsomol katibi keçdiyini, azərbaycanlılara qarşı fəaliyyətdə əsas adamlardan biri olduğunu bildirib.

"1988-ci ilin fevralından başlayaraq iş yerindən çıxanda bizi saqqallılar gözləyirdi. Onlar Xankəndidən deyildilər", - deyə o qeyd edib.

O, baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında yaşadığı evin qarşısında ermənilər tərəfindən daşlandığını, təhqir olunduğunu deyib və əlavə edib: "Evimizin qapısını döyürdülər, söyürdülər ki, buradan gedin, burada biz yaşayacağıq. Bizim binada Slavik var idi. Binanın uşaqlarını öyrədirdi ki, gələndə onları təhqir, daş-qalaq edin.

Qardaşım uşağı qıcolma keçirtmişdi, qızdırması var idi. Təcili yardım çağırmaq üçün zəng vurduq. Cavab verildi ki, "qızdırması varsa, soyuducuya qoyun, soyusun, buraya zəng vurmayın. Bura bizimdir, burada biz yaşayırıq.

Ümumiyyətlə, "Miatsum" sözü yaranandan günümüz qara idi. Şahbazyan soyadlı erməni həyat yoldaşıma demişdi ki, buradan birdəfəlik getsəniz yaxşıdır".

Zərərçəkmiş Vüqar Məhərrəmov ifadəsində Qazax rayonunun Bağanıs Ayrım kəndinin sakini olduğunu, 1990-cı il martın 23-dən 24-nə keçən gecə ermənilər tərəfindən evlərinə hücum edildiyini bildirərək deyib: "Gəlib evimizi dağıtdılar, sonra da yandırdılar. Erməni kişilər əhalini qətlə yetirib evlərindən qovduqdan sonra erməni qadınlar boş qalmış evlərimizə daxil olub talan edirdilər. Ardınca isə erməni kişilər talan olunmuş evləri yandırıb məhv edirdilər. Bütün mal-qaramızı yığıb apardılar. Atam bizi mal tövləsində gizlətmişdi. Tövləmizin aşağısında ot tayasının yanına yığılaraq əl çalıb əylənirdilər. Atam Alıməmməd Məhərrəmovun yanmış meyitini səhəri gün ot tayasının altından tapdıq. Atamın sümüklərini yığıb kənddə dəfn etdik. Elə o vaxt kənddən çıxdıq".

O, hücum edənlərin "Semonun dəstəsi" adlandırıldığını deyib və vurğulayıb: "Gələnlər hərbi forma geyinmiş silahlılar idilər. Qadınlar isə mülki formada idilər, evləri onlar talayırdılar".

V.Məhərrəmov qətlə yetirilənlər arasında körpənin də olduğunu bildirib. "Özləri ilə benzin maşını gətirmişdilər. Oradan benzin götürüb evlərin üstünə töküb yandırırdılar", - deyə o əlavə edib.

Zərərçəkmiş Ramiz Adıgözəlov da Bağanıs Ayrım kəndinin sakini olduğunu deyib. O, 1990-cı il martın 23-dən 24-nə keçən gecə 39 günlük körpəsi Hafiz Adıgözəlovun, həyat yoldaşı Aliyə Adıgözəlovanın və digər yaxınlarının ermənilər tərəfindən qətlə yetirilərək yandırıldığını bildirib.

Zərərçəkmiş hadisənin baş verməsindən danışarkən deyib ki, kəndə xeyli sayda Ermənistan hərbçisi gəlmişdi. Əvvəlcə qadınlar evləri talan edirdilər, sonra da kişilər evləri yandırırdılar. O, həmin gün 6 kənd sakininin və bir polis işçisinin yandırılaraq qətlə yetirildiyini qeyd edib. Qətlə yetirilmiş şəxslər arasında onun qayınatası, qayınanası, baldızı da olub.

Zərərçəkmiş Aidə Qurbanova isə 1990-cı il martın 23-dən 24-nə keçən gecə ermənilərin onun həyat yoldaşını - sahə müvəkkili, baş leytenant Zirəddin Əhmədovu yaraladıqlarını deyib.

Daha sonra dövlət ittihamını müdafiə edən prokurorlar Bağanıs Ayrım kəndinin məhv edilməsi epizodu üzrə videomaterialları və fotomaterialları nümayiş etdiriblər.

Yandırılmış meyitlərin videogörüntüləri nümayiş olunanda zaldakı zərərçəkmişlərin bir qisminin halı pisləşdiyi üçün çölə çıxıb.

Görüntüləri izləyən təqsirləndirilən Arayik Harutyunyan özünü guya kədərlənmiş kimi göstərib.

Videomateriallarda və fotomateriallarda məhkəmədə ifadə vermiş R.Adıgözəlovun 39 günlük oğlu Hafiz Adıgözəlovun və həyat yoldaşı Aliyə Adıgözəlovanın yandırılmış meyitlərinin görüntüləri də olub.

Zərərçəkmiş şəxs Zemfira Abbasova Xankəndi şəhərində yaşadığını, "Miatsum hərəkatı" başlayandan sonra evdən çıxa bilmədiklərini qeyd edərək deyib: "Baxmayaraq ki, ermənilər üçün çox yaxşı şərait yaradılmışdı, təminatları var idi, amma onlar bizi təhqir edir, təzyiq göstərirdilər. Onlar evlərimizə daxil olub onu talayır, dağıdır, əmlaklarımızı məhv edir, xaç formasında kəsib-doğrayırdılar. Çölə çıxa bilmirdik, bizi daş-qalaq edirdilər. Hətta bizə çörək satılmırdı.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zaman zərərçəkmiş qeyd edib ki, həmin vaxt dəmir yolu idarəsində işləyib. "Bu idarəyə də daxil olub, bizə qarşı müxtəlif qanunsuzluqlar edirdilər. Əsasən də "Türklər burada olmamalıdırlar, buradan çıxmalıdırlar", "Türklər məhv olmalıdırlar" deyirdilər. Tələb edirdilər ki, türklər çıxsın, əvəzində isə ermənilər bizim evlərimizə məskunlaşsın", - deyə o diqqətə çatdırıb.

Zərərçəkmiş Validə Rəsulova isə həyat yoldaşının 1988-ci il sentyabrın 18-də Kərkicahan qəsəbəsində ermənilər tərəfindən güllələndiyini, onu dolanbac yollarla Şuşa xəstəxanasına apardıqlarını bildirərək deyib: "Evimizdə oturduğumuz yerdə ermənilər hücum etdilər. Fərhad Ağakişiyev adlı azərbaycanlını işgəncə verə-verə öldürmüşdülər".

Zərərçəkmiş Fəridə Hüseynova Xankəndidə ipək fabrikində işlədiyini deyib. O bildirib: "Sex rəisimiz Raçik adlı erməni idi. O deyirdi ki, bura Ermənistandır, çıxın gedin. Bildirirdi ki, "Fəridə, istəyirəm girov düşəsən, bu gözündən basım, o biri gözün çıxsın". Dəzgahları söndürürdülər ki, işləyə bilməyək".

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandırarkən o deyib: "Bizi sıxışdırırdılar ki, evlərimizdən çıxaq. Hadisələr vaxtı demək olar bütün ailə üzvlərimiz xəsarətlər alıb".

Zərərçəkmiş Ədalət Vəliyev ifadəsində 1958-ci ildə Şərur rayonunun Kərki kəndində (hazırda bu kənd Sədərək rayonuna aiddir - red.) anadan olduğunu bildirib. O, kəndin Yerevan-Gorus yolunun üzərində, strateji mövqedə yerləşdiyini bildirib və əlavə edib: "Hələ sovet dövründə ermənilər kəndi ələ keçirmək istəyirdilər. Ağsaqqallara demişdilər ki, gəlib ərizə yazın, kənd bizə keçsin. Kəndimiz hər tərəfdən Ermənistan kəndləri ilə əhatə olunmuşdu. Oradan keçəndə maşınları daşlayır, qabağını kəsirdilər. Sonra rus hərbçilərin müşayiətilə gedib-gəlirdik. Bir müddət helikopterlə gedib-gəldik. Sonra o da alınmırdı, insanlar rayona yollarla yox, məcbur olub dağlardan keçərək gedirdilər".

Dövlət ittihamçıları Fuad Musayevin və Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş şəxs qeyd edib ki, 1990-cı il yanvarın 15-də səhər saat 6-7 radələrində Ermənistanın silahlı dəstələri Kərkiyə hücuma keçərək, kəndi hər tərəfdən mühasirəyə alıblar, kənddəki mağazanı, bəzi evləri yandırıblar və hadisə zamanı bir neçə nəfər yaralanıb.

"Rus komandir dedi ki, siz çıxın, burada qalsanız, kəndi dağıdacaqlar. Gedin, biz kəndi qoruyarıq, sonra qayıdarsınız. Biz çıxdıq, iki gün sonra eşitdik ki, kəndi talan ediblər.

Zərərçəkmiş Əli İsgəndərov da Kərki kəndində anadan olduğunu deyib və özündən əvvəl ifadə verən Ə.Vəliyevin söylədiklərini təsdiqləyib. O qeyd edib: "Yanvarın 15-dək Ermənistan tərəfdən hər gecə atəş açırdılar".

Zərərçəkmişlər təqsirləndirilən şəxslərin ən ağır şəkildə cəzalandırılmasını məhkəmədən xahiş ediblər.

Məhkəmənin növbəti iclası aprelin 14-nə təyin olunub.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan David Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (kölәlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.



# Qərb dairələrinin anti-Azərbaycan fəaliyyəti fiaskoya məhkumdur

**Bu gün Azərbaycan dünyanın hər yerindən görünən, bəşəriyyəti narahat edən problemlərin, istər bu, təbii kataklizmlər olsun, istərsə də siyasi böhranlar həllində fəal rol oynayan aktor ölkəyə çevrilib.**

Dörd il ərzində, dünyada BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına uğurlu sədrliyi, iştirakçı sayına görə dünyanın ən nəhəng tədbirlərindən olan COP29 kimi beynəlxalq iqlim sammitinə müvəffəqiyyətlə evsahibliyi etməsi, bu qlobal tədbirdə bəşəriyyət adına mühüm qərarların qəbul olunması və sair kimi tarixi əhəmiyyətli nailiyyətlər də buna nümunədir. Eyni zamanda Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin qlobal barışdırıcılıq missiyası, İsrail ilə Türkiyənin timsalında da bu aydın görünür, dünyadakı siyasi qütblər arasındakı gərginliklərin aradan qaldırılmasında fəal iştirakı ölkəmizin nüfuzunun göstəricisidir.

Bütün bunlar, həm də illər boyu Qərb dairələrinin apardığı anti-Azərbaycan fəaliyyətlərin fiaskoya uğradılmasının, ölkəmiz əleyhinə həyata keçirilən qarayaxma kampaniyasının heç bir işə yaramadığının təzahürüdür.

## Qərb QHT-lərinin çirkin məqsədlə göndərdiyi pullar

Faktdır ki, Azərbaycana qarşı hər zaman qərəz nümayiş etdirən Qərb dairələri hələ 2000-ci illərin əvvəllərində ölkəmizi daxildə pulla ələ aldıqları Qeyri-Hökumət Təşkilatları və media qurumları vasitəsilə parçalanmaya, xaosa, vətəndaş qarşıdurmasına, bir sözlə, məhvə sürükləməyə çalışıblar. Eyni zamanda Qərb mediasında sistemli şəkildə anti-Azərbaycan təbliğatı təşkil olunub. Həmçinin Azərbaycanda bərqərar olan demokratik sistemi dağıtmaq üçün seçkilərə də hər zaman müdaxilə etmək istəyində olublar.

Aprelin 9-da ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda iştirakçıların suallarını cavablandırarkən Prezident İlham Əliyev söylədi ki, əvvəlki illərdə seçkilərimizə müdaxilə müxtəlif sadə alətlər vasitəsilə edilirdi: "Birincisi, Qərbin qeyri-hökumət təşkilatlarının Azərbaycana göndərdiyi pullar idi. İkincisi, Qərb mediasında anti-Azərbaycan təbliğatı, Prezident Trampın saxta xəbərlər mənbəyi adlandırdığı "Washington Post", "New York Times" kimi nəşrləri, təbii ki, Fransanın hökumətyönlü "Figaro" və "Le Monde" kimi saxta mediaları elə bir abhava yaratmaq istəyirdilər ki, guya Azərbaycanda diktaturadır, demokratik təcrübə yoxdur, insan haqları vəhşicəsinə pozulur, müxalifət mələkdir, hakimiyyət isə şeytandır".

Prezident bildirdi ki, həmin vaxtda dövlət faktiki olaraq bu maliyyə vəsaitlərinin axınına tam nəzarət etmirdi: "Bu səbəbdən, Milli Demokratiya İnstitutu kimi bədnam qurumların, əslində, burada hökuməti devirmək planı hazırlamasının səbəbi də bu idi. Bunu aşkar etdik. Beləliklə, biz bank hesabından bir milyon ABŞ dollarından çox vəsaitin nağdlaşdırıldığını aşkar etdik. Sonra biz o pulun bir hissəsini, müxalifətyönlü fəalların kirayələdikləri mənzillərində "Molotov kokteylləri"ni və hökumət binalarına, polislərə necə hücum etmək təlimatlarını tapdıq".

Müxtəlif ölkələrdə rəngli inqilablar adı altında dağıdıcı fəaliyyət göstərən Qərb dairələri bu çirkin təcrübələrini 2005-ci ildə Azərbaycanda da həyata keçirmək üçün cəhdlər etmişdilər. Həmin il ölkəmizdə narıncı inqilab cəhdləri ABŞ Dövlət Departamenti tərəfindən təşkil olunmuşdu.

## "Qərb təşkilatları hələ çox "yaradıcıdırlar""

Ancaq dövlətimizin yürütdüyü demokratik siyasət, Azərbaycan xalqının dövlətə etimadının tam olması və iqtidar ətrafında sıx birləşməsi ölkəmizdə xarici mənfur qüvvələrin planlaşdırdıqları bütün planları suya saldı.

"İndi bunu etmək daha çətindir. Çünki birincisi, biz maliyyə sisteminə tam nəzarət edirik. İkincisi, yerli QHT-lərə, əslində, müxalifətin qollarına verilən bütün qrant adlanan vəsaitlər indi qeydiyyatdan keçməlidir. Burada pul qaçaqmalçılığı çox çətindir", - deyə adıçəkilən forumda Prezident İlham Əliyev vurğuladı.

Ancaq o da reallıqdır ki, bu mənfur qüvvələr ölkəmizin daxili işlərinə burun soxmaq, ara qarışdırmaq, böhran yaratmaq üçün hələ də ağlagəlməz yollara əl atırlar. "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda ölkəmizin rəhbəri təəssüflə qeyd etdi ki, bəzi Qərb təşkilatları hələ çox "yaradıcıdırlar". Onlar müxtəlif kuryerlər vasitəsilə buraya pul daşımağın yeni yollarını tapıblar. Onlar bu pulu, əsasən, Gürcüstan vasitəsilə gətirirdilər: "Gürcüstan deyəndə, pulun Gürcüstan tərəfindən ayrıldığını söyləmək istəmirəm. Bu, Gürcüstanda hələ də fəaliyyət göstərən Qərb qeyri-hökumət təşkilatlarındandır - xaricilərin nəzarətində olan Gürcüstan bankları vasitəsilə. Adsız kredit kartları və nağd pullar vəziyyətin sabitliyini pozmaq üçün buraya gətirilir".

Lakin Qərb dairələrinin Azərbaycanda siyasi sabitliyi pozmaq kimi məkrli niyyətləri mənasızdır. Çünki ötən dövrdə olduğu kimi, bundan sonra da onların bütün dağıdıcı cəhdlərinin qarşısı qətiyyətlə alınacaq. Dövlətimiz xalqımızın milli maraqlarını təhlükəyə atan heç bir qüvvənin ölkəmizin daxilində əl-qol açmasına imkan verməyəcək. Buna görə də Qərb dairələrinin anti-Azərbaycan fəaliyyətləri başından fiaskoya məhkumdur.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanın diplomatik uğurları:

## *Antalya Forumunda yeni perspektivlər*

**Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən, praqmatik və ardıcıl siyasət nəticəsində Azərbaycan son illərdə regionda və dünyada mühüm siyasi, iqtisadi və humanitar mərkəzlərdən birinə çevrilib. 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi qələbə ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etməklə yanaşı, Azərbaycanın beynəlxalq aləmdəki mövqeyini daha da gücləndirib, onu etibarlı tərəfdaş və qlobal proseslərə təsir göstərən dövlət kimi tanıdıb.**




Bu gün Azərbaycan dünya birliyində sabitlik, inkişaf və əməkdaşlıq simvolu kimi çıxış edir. Ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin və beynəlxalq təşkilatların sayı durmadan artır. Xarici siyasətdə balanslaşdırılmış yanaşma, qarşılıqlı hörmətə və faydaya əsaslanan münasibətlər Azərbaycanın beynəlxalq nüfuzunun artmasına şərait yaradıb. Dövlətimizin başçısının beynəlxalq və regional tədbirlərdə iştirakı, habelə Azərbaycanın evsahibliyi etdiyi yüksəksəviyyəli Zirvə görüşləri ölkəmizə olan marağın və etimadın bariz göstəricisidir. Son bir neçə ildə Prezident İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət Görüşündə, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Görüşündə, Şanxay Əməkdaşlıq Təşkilatının sammitlərində, Ərəb Dövlətləri Liqasının 31-ci Sammitində, SPECA - Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi BMT Proqramının Zirvə Görüşündə, Davos Dünya İqtisadi Forumunda iştirakı ölkəmizə marağın əyani təcəssümüdür. Azərbaycanın beynəlxalq nüfuzunun davamlı artmasının növbəti təsdiqi kimi, Prezident İlham Əliyev aprelin 11-13-də Türkiyənin Antalya şəhərində keçiriləcək IV Antalya Diplomatiya Forumunda iştirak etmək üçün dəvət alıb. Forum müxtəlif ölkələrdən nüfuzlu siyasətçiləri, dövlət və hökumət başçılarını, xarici işlər nazirlərini bir araya gətirərək, son illər ərzində region üçün əhəmiyyət kəsb edən ən önəmli məsələlərin və çağırışların müzakirəsi baxımından çox vacib beynəlxalq platformaya çevrilib.

Forumda "Parçalanmış dünyada diplomatiyanı bərpa etmək" mövzusu ətrafında qlobal çağırışların müzakirəsi nəzərdə tutulur. Prezident İlham Əliyevin bu forumda iştirakı bir daha göstərir ki, Azərbaycan yalnız regionda deyil, həm də qlobal miqyasda etibarlı tərəfdaş və təşəbbüskar dövlət kimi qəbul edilir. Dövlətimizin başçısının beynəlxalq münasibətlər sahəsində zəngin təcrübəsi, strateji baxışları və praqmatik yanaşmaları onu beynəlxalq platformalarda böyük maraqla qarşılanan Liderə çevirib. Prezident İlham Əliyevin iştirakı ilə keçirilən forumlar və zirvə görüşləri təkcə diplomatik formatda deyil, həm də məzmun və nəticələr baxımından yeni keyfiyyət mərhələsinə yüksəlir.

Azərbaycan və Türkiyə arasında əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş "Bir millət, iki dövlət" prinsipinə əsaslanan münasibətlər bu gün hər iki ölkənin rəhbərlərinin siyasi iradəsi və şəxsi dostluqları sayəsində ən yüksək zirvəyə çatıb. Bu münasibətlər təkcə iki qardaş ölkə arasında deyil, həm də regionun təhlükəsizliyi və inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında formalaşmış qarşılıqlı etimada əsaslanan əməkdaşlıq bu birliyin davamlılığını və gücünü təmin edən əsas amillərdəndir.

Antalyada keçiriləcək görüşlər Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı vəziyyətinə və inkişaf perspektivlərinə dair əhəmiyyətli fikir mübadiləsi üçün geniş imkanlar yaradacaq. Bu səfər, həmçinin ikitərəfli əməkdaşlığın siyasi, iqtisadi, enerji, nəqliyyat, müdafiə və digər sahələrdə daha da dərinləşdirilməsi baxımından mühüm addım olacaq. Bununla yanaşı, Azərbaycan və Türkiyə bu gün regional təhlükəsizliyin təminatçıları, sülh və əməkdaşlığın təşəbbüskarları kimi çıxış edirlər. Onların regiondakı fəallığı, Cənubi Qafqazdan Mərkəzi Asiyaya, Qara dənizdən Aralıq dənizinə qədər geniş coğrafiyada sabitliyin qorunmasına verdikləri töhfə beynəlxalq aləmdə yüksək qiymətləndirilir.

Türkiyə-Azərbaycan münasibətlərinin unikal xarakteri və bu əlaqələrin sabitliyi regional inteqrasiya və ortaq inkişaf baxımından nümunəvi model kimi çıxış edir. Heç şübhəsiz, Prezident İlham Əliyevin Antalyaya işgüzar səfəri və Antalya Diplomatik Forumunda iştirakı təkcə iki ölkə arasında strateji münasibətlərin daha da möhkəmləndirilməsi baxımından deyil, həm də Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsi və sülh təşəbbüslərinin irəlilədilməsi baxımından mühüm hadisə olacaq.

Azərbaycanın artan beynəlxalq nüfuzu, onun iqtisadi, enerji və nəqliyyat sahələrində həyata keçirdiyi irimiqyaslı layihələrlə də sıx bağlıdır. Ölkəmiz bu gün regionun enerji xəritəsini müəyyən edən aparıcı aktorlardan biri kimi çıxış edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan və dünya enerji təhlükəsizliyinə mühüm töhfə verən "Cənub qaz dəhlizi" layihəsi Avropanın enerji mənbələrinin şaxələndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Üç min beş yüz kilometrdən çox uzunluğu olan bu layihə Azərbaycanın zəngin enerji resurslarını Gürcüstan, Türkiyə və Cənubi Avropa ölkələri vasitəsilə beynəlxalq bazarlara çatdırmaqla qlobal enerji əməkdaşlığının mühüm komponentinə çevrilib.

Bununla yanaşı, ölkəmiz nəqliyyat və logistika sahəsində də mühüm təşəbbüslərlə çıxış edir. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və görülən digər işlər Azərbaycanın regionun əsas nəqliyyat qovşağına çevrilməsini təmin edir. Bu layihələr təkcə regional deyil, həm də Asiya ilə Avropa arasında strateji əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır.

Azərbaycanın uğurlu diplomatiyasının nəticəsi olaraq ölkəmiz beynəlxalq əməkdaşlıq platformalarında da fəal iştirak edir. COP29 kimi mötəbər beynəlxalq tədbirin 2024-cü ildə Azərbaycanda keçirilməsi ölkəmizin qlobal ekoloji gündəmdəki mühüm rolunu və iqlim dəyişikliyi ilə mübarizəyə verdiyi töhfələri bir daha təsdiqləyir. Bu tədbir vasitəsilə Azərbaycan bəşəriyyətin qarşısında dayanan ən aktual problemlərin həllində təşəbbüskar və məsuliyyətli tərəfdaş olduğunu nümayiş etdirib.

Bundan əlavə, Azərbaycanın BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq qurumlarla sıx əməkdaşlıq şəraitində həyata keçirdiyi humanitar və inkişaf layihələri də ölkəmizin dünyada sabitlik, humanizm və dialoq mədəniyyətinin təşviqinə verdiyi əhəmiyyətli töhfələrin göstəricisidir. Xüsusilə, Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına sədrliyi dövründə inkişaf etməkdə olan ölkələrin maraqlarını müdafiə etməsi, qlobal ədalətin bərpasına yönəlmiş addımlar atması beynəlxalq ictimaiyyət tərəfindən yüksək dəyərləndirilib.

Bütün bu fəaliyyətlər fonunda Prezident İlham Əliyevin Antalya Diplomatik Forumunda iştirakı Azərbaycanın dünya siyasətində mühüm söz sahibi olan dövlətə çevrildiyini bir daha nümayiş etdirir. Azərbaycan bu gün yalnız enerji və nəqliyyat sahələrində deyil, həm də sülh, əməkdaşlıq və dayanıqlı inkişaf naminə beynəlxalq birlikdə fəal mövqe tutaraq, regionun və dünyanın gələcəyinə töhfə verir.

***AZƏRTAC***

# Terrorçuya tövbə yoxmuş

## Ermənilərin indi də mina terrorundan əziyyət çəkirik

**Keçmişə nəzər salanda məlum olur ki, haylar uzaq və yaxın xarici ölkələrdən cənubi Qafqaza köçürüləndən yerli azərbaycanlılara qarşı qətl, qarət, terror, xəyanət və işğalçılıqla məşğul olublar. Beynəlxalq və daxili vəziyyətin imkan verdiyi tarixi şərait yaranan kimi, xəyanətkar niyyətlərini reallaşdırmaq üçün bütün vasitələrdən istifadə edirlər. Bu sırada qanı və canı xəyanətdən yoğrulmuş ermənilərin mina terroru xüsusi yer tutur.**

Azərbaycan uzun müddətdir ki, ermənilərin mina terrorundan əziyyət çəkir və bu dəhşətli bəla ilə təkbaşına mübarizə aparır. Buna baxmayaraq, iki gündənbir-üç gündənbir, həftəaşırı eşidirsən ki, işğaldan azad edilmiş hansısa ərazidə mülki şəxs, haradasa yol gedən piyada və ya nəqliyyat vasitəsi minaya düşür, yüngül və ya ciddi xəsarət alır, həyatını itirir. Məsələn, cari il aprelin 6-da Ağdamın Qalayçılar kəndi ərazisində ata, azyaşlı oğlu və qızı minaya düşüblər. 1983-cü il təvəllüdlü ataya sağ aşıq baldır oynağının travmatik amputasiyası diaqnozu ilə əməliyyat təyin edilib. Övladları da partlayışdan zədəsiz çıxmayıblar. Bundan bir gün sonra isə Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu Əsgər Nicat oğlu Musayev Cəbrayıl rayonunda minaya düşərək həlak olub. Aprelin 8-də işğaldan azad edilmiş Cəbrayıl rayonunun Mehdili kəndi ərazisində də mina hadisəsi baş verib. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşı 1991-ci il təvəllüdlü Xankişiyev Heydər Əli oğlu xidməti vəzifəsini yerinə yetirərkən piyada əleyhinə mina partlayışı nəticəsində sağ ayağından ciddi zədə alıb.

Xatırladaq ki, ernməni işğalından azad olunan ərazilərdə martın 31-dən aprelin 6-dək, yəni bir həftə ərzində, 107 piyada əleyhinə mina, 13 tank əleyhinə mina, 870 partlamamış hərbi sursat (PHS) aşkarlanaraq zərərsizləşdirilmişdir. Təxminən 1 hektar ərazi minalardan təmizlənmişdir.

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsindən sonra azad edilmiş ərazilərdə demək olar ki, hər gün baş verən və insan itkisinə səbəb olan mina partlayışları onu deməyə əsas verir ki, ölkəmiz hələ uzun müddət bu təhlükə ilə üz-üzə qalacaq. Çünki ərazilərimiz kütləvi şəkildə minalarla çirkləndirilib. İşğal dövründə torpaqlarımıza ilkin qiymətləndirmələrə görə, 1,5 milyondan artıq mina basdırılıb. İkinci Qarabağ müharibəsi başa çatandan bu günə qədər 400 nəfərə yaxın vətəndaşımız mina qurbanı olub - onlar ya həyatlarını dəyişiblər, ya da ağır bədən xəsarətləri alaraq sağlamlıqlarını itiriblər. Ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3500-ə yaxın vətəndaşımız minalardan zərər çəkib. Onların arasında çoxsaydа uşaqlar, qadınlar da var.



Məlumdur ki, münaqişə bitdikdən sonra Ermənistan Laçın yolundan istifadə edərək Azərbaycan ərazilərinə minalar döşəməyə davam etmişdir. 2022-ci ildə Laçın və Kəlbəcər rayonlarının ərazisində 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə minanın aşkar edilməsi də bu faktı təsdiqləyir. Azərbaycan tərəfi bu səbəbdən mina xəritələrinin təqdim edilməsinə dair Ermənistana dəfələrlə çağırışlar etsə də, qarşı tərəf manipulyasiya ilə məşğul olub. Hətta uzun müddət, ümumiyyətlə, belə xəritələrin mövcudluğunu inkar edib. Beynəlxalq ictimaiyyət tərəfindən göstərilən təzyiqlər nəticəsində təqdim olunan, minalanmış ərazilərin kiçik bir hissəsinin əhatə olunduğu məlumatların etibarlılığı isə cəmi 25 faiz təşkil edib. Təsadüfi deyil ki, son dövrlər baş verən mina hadisələrinin böyük əksəriyyəti təqdim olunmuş məlumatların əhatə etdiyi ərazilərdən kənarda baş verib.

Azərbaycanın Xarici İşlər Nazirliyi mina partlayışı ilə əlaqədar beynəlxalq ictimaiyyəti hərəkətə keçməyə çağırıb: "Növbəti mina partlayışı nəticəsində kiçik yaşlı uşaqlar da daxil olmaqla 4 Azərbaycan vətəndaşı ağır yaralanıb. 2020-ci il müharibəsindən bəri Ermənistanın mina çirklənməsi səbəbindən 393 nəfər ya həlak olub, ya da yaralanıb". Bəyanatda daha sonra bildirilir: "Beynəlxalq ictimaiyyəti mina əleyhinə fəaliyyətin təcililiyini tanımağa, Azərbaycanın davam edən minatəmizləmə səylərində onunla birgə olmağa, həmçinin günahsız insanların həyatını təhlükə altına almağa və münaqişədən sonrakı bərpa işlərinə maneə törətməyə davam edən Ermənistanı məqsədyönlü və geniş yayılmış mina çirklənməsinə görə məsuliyyətə cəlb etməyə çağırırıq".

Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın Cəbrayıl və Ağdamda baş vermiş mina hadisələri ilə bağlı bəyanatında isə qeyd edilib ki, işğal dövründə ərazilərimizə basdırılmış minalar regionda qalıcı sülhün bərqərar olmasına ciddi təhdid yaradır. Bu təhlükənin qarşısının alınması üçün beynəlxalq əməkdaşlıq və yardımlar olduqca vacibdir. Ombudsman bildirib ki, Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdəki humanitar vəziyyətin ciddi şəkildə nəzərə alınması və Ermənistanın beynəlxalq hüquq çərçivəsində məsuliyyətə cəlb edilməsi aidiyyəti beynəlxalq qurumlar qarşısında mühüm bir öhdəlik olaraq qalmaqdadır: "Minaların məqsədli şəkildə basdırılması insan hüquqlarının ciddi şəkildə pozulmasına, regionda sülhün və təhlükəsizliyin bərpa olunmasını çətinləşdirməyə səbəb olur. Ombudsman olaraq, beynəlxalq ictimaiyyəti minatəmizləmə fəaliyyətlərinin təxirəsalınmazlığını qəbul etməyə, Azərbaycanın davam edən mina təmizləmə səylərinə dəstək olmağa və həmçinin Ermənistanı məqsədli şəkildə və geniş miqyasda basdırılmış minalara görə məsuliyyətə cəlb etməyə çağırıram".

Dövlətimizin, xalqımızın tələbi və gözləntisi ondan ibarətdir ki, Ermənistanın Azərbaycana qarşı mina terroruna son qoymaq üçün başda BMT, eləcə də digər xarici dövlətlər, hüquq müdafiəçiləri, tərəqqipərvər ictimaiyyət qətiyyətli mövqe nümayiş etdirsinlər, terrorçulara "dur" desinlər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Ələt Azad İqtisadi Zonası üzrə İşçi Qrupunun ikinci iclası keçirilib

**Ələt Azad İqtisadi Zonasında investorların səmərəli fəaliyyəti üçün dayanıqlı infrastrukturun və kommunal xidmətlərin qurulması, ərazidə reallaşdırılan layihələr, karqo hava limanının tikintisi üzrə görülən işlər müzakirə olunub.**



Ələt Azad İqtisadi Zonası ilə bağlı yaradılmış İşçi Qrupun ikinci iclası keçirilib. İclasda iqtisadiyyat naziri, İşçi Qrupun rəhbəri Mikayıl Cabbarov, Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov və aidiyyəti dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri iştirak ediblər.

İclasda ökəmizdə sənayeləşmə siyasətinə uyğun olaraq, müasir sənaye müəssisələrinin qurulduğu, qeyri-neft-qaz sənayesinin inkişafına xidmət edən mütərəqqi mexanizmlərin tətbiqi nəticəsində mühüm nailiyyətlər əldə edildiyi diqqətə çatdırılıb. Bildirilib ki, iqtisadiyyatımızın diversifikasiyası baxımından əhəmiyyət kəsb edən Ələt Azad İqtisadi Zonasının qısa zaman içərisində qurularaq investorların istifadəsinə verilməsi və beləliklə, ölkə iqtisadiyyatının aparıcı drayverlərindən birinə çevrilməsi böyük önəm daşıyır. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, həmin sərmayədarların Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində iqtisadi inkişafa töhfə vermək, həmçinin yeni iş yerləri yaratmaq əsas hədəflərdəndir.

Qeyd edilib ki, Ələt Azad İqtisadi Zonasında mövcud əlverişli şərait, təklif olunan güzəştlər investorların İqtisadi Zonaya marağını artırır. İqtisadi Zona Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, "Şərq-Qərb", "Şimal-Cənub" və Orta dəhliz beynəlxalq nəqliyyat dəhlizlərində mühüm rolu olan ölkəmizin strateji əhəmiyyəti artacaq.

İclasda ərazidə reallaşdırılan layihələr, investorların səmərəli fəaliyyəti üçün dayanıqlı infrastrukturun və kommunal xidmətlərin qurulması, karqo hava limanının tikintisi üzrə görülən işləri və növbəti addımları müzakirə etdik.

## "Məşğulluğa Dəstək layihəsi" çərçivəsində Şamaxıda benefisiarlarla görüş və ictimai dinləmə olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində Dünya Bankının monitorinq missiyası Şamaxı rayonunda layihənin bir qrup benefisiarı ilə görüşüb.**



İcra Qrupu əməkdaşlarının iştirak etdikləri görüş zamanı qarşılıqlı fikir mübadiləsi aparılıb, kiçik bizneslərin inkişaf etdirilməsinə dair benefisiarlara müvafiq tövsiyələr verilib.

Daha sonra, məlumatlılığı artırmaq, nəzərdə tutulmuş hədəf kateqoriyaları layihəyə cəlb etmək məqsədilə Şamaxı şəhərində ictimai dinləmə də keçirilib.

İşaxtaran və işsiz, o cümlədən öz biznesini qurmaq istəyən şəxslərin iştirakı ilə baş tutan tədbirdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi barədə ətraflı məlumat verilib. Layihənin icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər, proqramın gözlənilən faydaları, müraciət və iştirak qaydaları diqqətə çatdırılıb.

Layihə çərçivəsində öz bizneslərini qurmuş benefisiarların uğur hekayələrini əks etdirən videoçarxlar nümayiş etdirilib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, eləcə də layihə çərçivəsində öz biznesini qurmaq istəyən şəxslərə müvafiq tövsiyələr verilib.

## Dövlət Məşğulluq Agentliyi daha 122 şəxsi peşə kurslarına cəlb edib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən daha 122 şəxs əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlıq kurslarına cəlb olunub.**

Onlardan 18 nəfər üçün agentliyin Bakı, Gəncə, Göyçay və Qarabağ Peşə Hazırlığı Mərkəzlərində, 104 nəfəri üçün özəl tədris müəssisələrində peşə kursları təşkil olunub.

Kurslarda iştirakçılara müxtəlif peşələr üzrə nəzəri və praktiki biliklər tədris edilir.

İşəgötürənlərlə əməkdaşlıq edilməklə təşkil olunan kursları uğurla başa vuran şəxslərin işlə təminatı da həyata keçiriləcək.




## ADY Astara Terminalının inşası üzrə işlərin böyük hissəsini tamamlayıb

**"Azərbaycan Dəmir Yolları" QSC (ADY) "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas elementlərindən olan Astara Terminalının (İran İslam Respublikasının ərazisində) tikintisi üzrə əsaslı işlər görüb. "Trend" bu barədə ADY-yə istinadən xəbər verir.**



Bildirilir ki, terminalın layihələndirmə işlərinin 85, tikinti-quraşdırma işlərinin isə 72,4 faizi başa çatdırılıb. Astara stansiyasından İran İslam Respublikası ilə sərhədə qədər 8,3 km dəmir yolu xətti çəkilib və Astaraçay üzərində dəmir yolu körpüsü inşa olunub. Layihə çərçivəsində 7 körpünün tikintisi nəzərdə tutulur. Körpülərdən birinin inşası tam yekunlaşıb, digərlərinin tikintisi üzrə işlərin 90 faizi yekunlaşıb.

Astara Terminalında 2023-cü ildə 692 min, 2024-cü ildə isə 777 min tondan çox yük aşırılıb. Terminalın tikintisi tam başa çatdıqdan sonra yükaşırma gücünün illik 3,5 milyon tona çatdırılması nəzərdə tutulur.

Astara Terminalı "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə yükdaşımaların həcminin artırılmasını və əməliyyatların operativ şəkildə həyata keçirilməsini təmin edəcək.

Xatırladaq ki, Azərbaycan və İran hökumətləri arasında əldə olunmuş razılaşmaya əsasən, 2017-ci ildə Astara Terminalının inşasına start verilib. Terminal İranın Astara şəhərində Azərbaycan-İran sərhədindən 1,4 km məsafədə yerləşir. Tikintisi ADY tərəfindən aparılan terminalın ərazisi İran hökuməti tərəfindən 25 il müddətinə Azərbaycana icarəyə verilib.

## 12 Aprel Kosmonavtika Günüdür

**Bu, 1960-cı illərdə olmuş bir əhvalatdır. O zaman SSRİ Ali Sovetinin deputatı olan azərbaycanlı xanım sovet nümayəndə heyətinin tərkibində təyyarə ilə Moskvadan uzaq ölkələrdən birinə uçurmuş. Nümayəndə heyətində dünyanın ilk kosmonavtı Yuri Qaqarin də varmış və onlar təyyarədə yanaşı əyləşibmişlər. Elə olur ki, uçuş zamanı təyyarə kəskin bir manevr edir və qadın bərk həyəcanlanır. Bu zaman gənc Qaqarin ona tərəf əyilərək: "Ne boytes, - deyir və ardınca Azərbaycan dilində əlavə edir: "Allah qoysa, gedərik, Allah qoysa, gələrik".**




Qadın qulaqlarına inanmır. Sonralar fürsət düşəndə ondan bu sözləri haradan, necə öyrəndiyini soruşur. Qaqarin adəti üzrə gülümsəyərək qısa cavab verir: "Axı böyüyümüz azərbaycanlıdır". Qadın bunu zarafat sanır və söhbət bununla bitir.

Qaqarin isə Kremlin Qurultaylar Sarayındakı tədbirlərdə də yerləri yanaşı olan azərbaycanlı deputat həmkarının məsuliyyətinə və ciddiliyinə güvənərək ona həqiqəti söyləmişdi. Təkcə Yuri Qaqarinin deyil, sovet kosmonavtlarının hamısının "böyüyü" azərbaycanlı Kərimov idi. Artilleriya general-leytenantı, Lenin, Stalin və SSRİ Dövlət mükafatları laureatı Kərim Abbasəli oğlu Kərimov. Onun adı uzun müddət, 1987-ci ildə Sosialist Əməyi Qəhrəmanı fəxri adını alana qədər məxfi, necə deyərlər, yeddi qıfıl arxasında saxlanılmışdı.

Bu, həmin Kərimov idi ki, sovet kosmonavtikasında mərkəzi fiqurlardan, sovet kosmos proqramının banilərindən biri olmuşdur. Kapustin Yar təlim meydanında ilk kosmik raketləri sınaqdan keçirmişdi. Yüzlərlə raketin kosmosa buraxılmasında iştirak etmişdi. Nəhayət, 1966-cı ildə SSRİ-də Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasına sədr təyin etmək üçün namizəd arayanda yalnız onun adı üzərində dayanmışdılar.

Bu, həmin Kərimov idi ki, Amerikanın Kosmik Agentliyi NASA belə bir mütəxəssisə sahib olmaq istəyi ilə onu "gözaltılamış"dı. Mərkəzi Kəşfiyyat İdarəsinin ona "yan almaq" cəhdlərinin isə hamısı boşa çıxmışdı.

Kərimovu uzaq fəzalara, uca zirvələrə aparan bu yol isə Bakının qədim küçələrindən, Xəzərin qumlu sahillərindən, Pirşağı bağlarından başlanmışdı. Kərimov bu uzaq səfərə Azərbaycandan çıxmışdı...

O, Sankt-Peterburqda mükəmməl təhsil almış, ixtisasca mühəndis-texnoloq olmuş Abbasəli Kərimovun ailəsində 1917-ci ildə dünyaya göz açmışdı. Atası müxtəlif sahələrə aid texnologiyalara dərindən bələd idi. Bilgilərini əsasən Bakının neft mədənlərində tətbiq etmişdi. İlk Bakı-Batumi neft kəmərinin tikintisinin və istismarının iştirakçısı olmuşdu.

Kərim məktəbli olanda babasının Mustafa Sübhi küçəsində yerləşən evinin yaxınlığında Uşaq Texniki Stansiyası açılır. Orada radio dərnəyi də yaradılır. Yeniyetmə Kərim Kərimov həmin dərnəyə yazılır və elə hər şey də buradan başlanır.

Orta təhsilini rus dilində alan Kərim Novoçerkask Energetika İnstitutunun Elektromexanika fakültəsinə qəbul olunur. Lakin ailəsinin məsləhəti ilə üçüncü kursdan təhsilini Azərbaycan Sənaye İnstitutunun (indi Azərbaycan Neft və Sənaye Universiteti) Energetika fakültəsində davam etdirir.

Kərimin ali təhsilini bitirməsi 1941-ci ilə təsadüf edir və onun müharibə ilə bağlı Səmərqənd şəhərinə təxliyə edilmiş Dzerjinski adına Moskva Artilleriya Akademiyasına daxil olmasına təyinat verirlər. Çünki bir sıra ideyaları artıq hərbi mühəndisləri maraqlandırmışdı. Təsadüfi deyil ki, biliklərini yoxladıqdan sonra bu istedadlı gənci akademiyanın sonuncu kursuna qəbul etmişdilər və o, beşillik təhsili bir ilə başa çatdırmışdı. 1943-cü ildə Kərim Kərimov artıq topçu-mühəndis idi və ona Qvardiya Minaatan Hissələri Baş İdarəsinin müvəkkili kimi zavodlarda "BM-13" - o zaman "Katyuşa" adı ilə tanınan yaylım atəşi qurğusu üçün mərmilərin istehsalına nəzarət etmək vəzifəsi tapşırılmışdı. Lakin gənc mütəxəssis bununla kifayətlənməyərək daim həmin silahın təkmilləşdirilməsi barədə düşünürdü və hətta təkliflərini də irəli sürmüşdü.

İndi Kərimov seçdiyi yolda daha geniş sahəni əhatəyə alaraq raket texnikası istiqamətində irəliləyirdi.

Müharibədən sonra Kərim Kərimov SSRİ Müdafiə Nazirliyi sistemində raket texnologiyaları yaradan konstruktor büroları və zavodlarında çalışır. 1946-cı ildən başlayaraq ballistik raketlərin radioölçmə sistemlərinin yaradılması istiqamətində işlər aparır. Onun araşdırmaları nəticəsində raketlərin daxili parametrlərinə nəzarət edən "Don" radioölçmə sistemi yaradılır. Bunun elmi-texniki göstəriciləri sonradan kosmik sənayedə tətbiq edilir.

Müdafiə Nazirliyi sistemində Kərimov idarə rəisi vəzifəsinə, general rütbəsinədək yüksəlir. Beləcə, 20 il əvvəl işə tramvayla gedib-gələn baş leytenant öz dərin zəkası və gərgin zəhməti ilə SSRİ kimi nəhəng bir dövlətə son dərəcə vacib işlərdə gərək olan şəxsiyyətə çevrilir.

Artıq kosmik era başlanmışdı. Kosmos isə o qədər çətin, mürəkkəb və məsuliyyətli sahədir ki, orada ən kiçicik bir məsələ də adi, ikinci dərəcəli sayıla bilməz. O ki ola pilotlu kosmik gəmilərin inşa edilməsi... Kərim Kərimov bu məsələyə o dərəcədə dəqiq yanaşırdı ki, ilk vaxtlar kosmik raketlərin konstruktoru Sergey Korolyovla fikirləri haçalanır, bəzən mübahisələri də düşürdü. Belə ki, Korolyov vaxta tabe olmağa, gəmini tez tikib təhvil verməyə çalışırdı. Kərimov isə sifarişçi olaraq ən kiçik hissəciyi də dönə-dönə yoxlamaqdan yorulmurdu... Beləcə onlar "çəkişərək bərkişmiş", ən yaxın dostlara və silahdaşlara çevrilmişlər.

Kərimova tapşırılan vəzifəni yerinə yetirmək sıradan bir iş deyildi. Təkcə bu faktın özü çox şeyi deyir ki, Yuri Qaqarinin kosmosa qalxmasından əvvəl uçuşu hazırlayan bir neçə nəfər onun yerə sağ-salamat qayıdacağına təminat verməli, bunu yazılı surətdə bildirməli və yazdıqlarının altında imza atmalı idilər. Həmin şəxslərdən biri olan Kərimov sonralar xatırlayırdı: "Bu işə canımızla, qanımızla, başımızla cavabdeh idik".

1961-ci il aprelin 12-si general Kərimovun ömrünün ən unudulmaz günlərindən biri idi.

Baykonurda aydın bir səhər açılmışdı. Qazaxıstan çöllərini bəzəyən qıp-qırmızı lalələr sanki pıçıldaşırdılar. Xoş bir meh əsirdi. Meh artıq kosmik gəmiyə minməyə hazırlaşan Qaqarinin yanaqlarını allandırmışdı. Bu onu daha gümrah və olduğundan da yaraşıqlı göstərirdi.

O gün böyük bir tarix yazılırdı. Dünyada ilk dəfə insan kosmosa uçurdu. Azərbaycan xalqı birinci kosmonavtın SSRİ vətəndaşı olduğundan qürur duyur, sevinirdi. Lakin heç kəsin ağlına belə gəlmirdi ki, Qaqarini əngin fəzalara qaldıran "Vostok" gəmisi Azərbaycan oğlu Kərim Kərimovun rəhbərliyi ilə inşa edilib...

Nə yaxşı ki, tarix heç bir sirri gizli saxlamır!..

Sözügedən hadisədən 40 il keçəcək və Kərim Kərimov sanki adi bir iş görübmüş kimi sakitliklə deyəcək: "Qaqarinə həyat vəsiqəsini mən vermişəm".

1966-cı ildən Kərim Kərimov Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasına rəhbərlik etməyə başlayır. Bundan sonra da kosmik uçuşlar edən bütün pilotların uğurları, qayğı və problemləri, bəzən hətta faciələri də Kərimovun sanki qəlbindən və taleyindən keçir. Buna görə də kosmonavtlar onu çox sevirdilər. Müxtəlif illərdə kosmosa uçmuş Pavel Popoviç, Aleksey Leonov, Vladimir Şatalov, Musa Manarov və başqaları onun haqqında doğma, əziz insan kimi danışırdılar. Sergey Korolyovun qızı Natalya həmişə Kərimovu atası ilə qoşa xatırlayaraq kövrəlirdi...

Kərim Kərimov 25 il, yəni 1991-ci ilə qədər dövlət komissiyasının sədri olub. Kosmonavtlar deyirlər ki, göydə bəzən gözlənilməz hallar da baş verir. Bu zaman istər onların özü, istərsə də uçuşu yerdən idarə edən heyət dərhal, elə həmin an qərar qəbul etməlidir. Belə hallarda ən düzgün yolu komissiya sədri göstərirdi. Ən başlıcası isə bu idi ki, o, qərarı ildırım sürəti ilə qəbul edirdi.

1974-cü ildən Kərimov əsas vəzifəsi ilə yanaşı, Mərkəzi Elmi-Tədqiqat Maşınqayırma İnstitutu direktorunun birinci müavini vəzifəsində də çalışıb. Həmin dövrdə sovet kosmik aparatları onun birbaşa rəhbərliyi və fəal iştirakı ilə yaradılıb. Bu aparatların sırasında yeni nəsil "Soyuz" kosmik gəmiləri, "Solyut" orbital stansiyası və sonradan çoxmodullu "Mir" stansiyası olub.

General Kərim Kərimovun Azərbaycanda kosmik sənayenin inkişaf etdirilməsinə də böyük köməyi dəymişdi. O, AMEA-nın Aerokosmik Tədqiqatlar Mərkəzinə əlindən gələn köməyi göstərmiş, bir çox azərbaycanlı alimin bu sahədə fəaliyyət göstərib inkişaf etməsinə şərait yaratmışdır. K.Kərimov AMEA-nın fəxri üzvü seçilmişdi. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev müstəqillik illərində ona "Şöhrət" ordenini təqdim edərkən bütün bunları bir daha xatırlatmışdır.

Kərim Kərimov Azərbaycandan uzaqlarda yaşamış, işi və çevrəsi ilə bağlı həmişə başqa dildə danışmış, tutduğu vəzifələrin onun üçün demək olar ki, boş vaxt qoymadığı üçün vətəninə gec-gec gəlmişdi. Lakin o, Azərbaycanı qəlbən sevirdi. Kitab rəfində Azərbaycan haqqında istənilən qədər əsər vardı. Azərbaycan musiqisini dinləməkdən zövq alır, evindəki qrammafon vallarını dönə-dönə fırladaraq Zeynəbin nəğmələrinə qulaq asır, çayı armudu stəkanda içir, uşaqlıqda atasının öyrətdiyi "Kəlmeyi-şəhadəti" də əzbər bilirdi. 2003-cü ildə dünyasını dəyişən generalın Bakıda dəfn olunmadığının yeganə səbəbi isə yaxınlarının dediyinə görə, Moskvada torpağa tapşırdığı ömür-gün yoldaşı Zara Hənifə qızı ilə yanaşı uyumaq arzusu olub.

...Bu gün Azərbaycan bütün sahələrdəki inkişafı ilə böyük yüksəkliklərdədir. Elə sözün birbaşa mənasında kosmosda da varıq. Ölkəmiz 2013-cü il fevralın 8-də kosmosa "Azerspace-1", 2014-cü il iyunun 30-da "Azersky" və 2018-ci il sentyabrın 28-də "Azerspace-2" peyklərini buraxıb.

Kosmosa ilk "imza atan"lardan biri - həmyerlimiz Kərimovun ruhu da bu gün bir zamanlar sonsuz ənginliklərdən qoynundakı adaların, əfsanəvi Neft Daşlarının şəklini çəkdirdiyi dənizin - Xəzərin mavi suları üzərində uçur, azad, suveren Azərbaycanın göylərində qanad açır...

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Daşkəsən rayonunda mövcud olan abidələrə məlumat lövhələri quraşdırılıb

**"AzerGold" QSC-nin təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin dəstəyi ilə "Daşkəsən rayonunda tarixi-mədəni abidələrin tanıdılması" layihəsi çərçivəsində rayon ərazisində mövcud olan ölkə və yerli əhəmiyyətli tarix-memarlıq və arxeoloji abidələr üçün məlumat lövhələri hazırlanaraq quraşdırılıb. Bu barədə qurumun Mətbuat xidmətindən məlumat verilib.**




QSC-nin Sosial təsir və məsuliyyət üzrə siyasəti çərçivəsində icra edilən layihədə əsas məqsəd aktiv hasilat və istehsalat fəaliyyəti həyata keçirilən Daşkəsən rayonunun təkcə faydalı qazıntı yataqları ilə zəngin bölgə kimi deyil, həmçinin füsunkar təbiətə, memarlıq və arxeoloji abidələrə malik qədim yaşayış məskənlərindən biri kimi tanıdılmasına, mədəni irs nümunələrimizin mühafizəsinə töhfə verməkdir. Bu məqsədlə icra edilən layihə Daşkəsən rayonunda yerləşən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı ilə dövlət mühafizəsinə götürülmüş 46 ədəd tarix-memarlıq abidəsini əhatə edib.

Layihə çərçivəsində "AzerGold" QSC və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin nümayəndələrinin iştirakı ilə 34 ədəd ölkə əhəmiyyətli arxeoloji abidə, 10 ədəd yerli əhəmiyyətli memarlıq abidəsi, 1 ədəd ölkə əhəmiyyətli memarlıq abidəsi və 1 ədəd yerli əhəmiyyətli monumental və xatirə abidəsi məlumat lövhəsi ilə təmin edilib.

İcrasına 2022-ci ildə başlanılan "Daşkəsən rayonunda tarixi-mədəni abidələrin tanıdılması" layihəsi çərçivəsində rayon ərazisindəki qədim memarlıq və təbiət abidələrinin fotoçəkilişi həyata keçirilib, həmin materiallar əsasında "Daşkəsən abidələri" adlı təqvim-kataloq hazırlanıb və geniş ictimaiyyətə təqdim edilib. Təqvim-kataloqda qədim yaşayış məskənləri, mağaralar, körpülər, məbəd və türbələr, eləcə də onlar haqqında müxtəlif mənbələrdən toplanmış məlumatlar öz əksini tapıb.

# Ürəyinizi qoruyun

**Son illər qəfil ölümlər bütün dünyada ciddi problemə çevrilib. Statistik rəqəmlərə nəzər saldıqda ani ölümlərin bütün ölümlərin 10-12 faizini təşkil etdiyi müşahidə olunur.**



Qəfil ölüm dedikdə, döş qəfəsində ağrı, ürək döyüntüsü, başgicəllənmə və ya hər hansı bir şikayətlə ölüm arasında 1 saatdan az vaxt olduğu itkilər nəzərdə tutulur. Ani ölümlər təkcə yaşlılarda deyil, böyüklərdə, yeniyetmələrdə və hətta uşaqlarda da müşahidə olunan təhlükədir. Gözlənilməyən bir yaşda, məkanda və ya zamanda ani ölüm nəticəsində itirdiyimiz insanların sayı artır və təəssüf ki, bu ölümlər əhəmiyyətli dərəcədə "cavanlaşır". Gənc və ortayaşlı insanlarda ən çox rast gəlinən ölüm səbəblərindən biri ani ürək dayanmasıdır.

Mütəxəssislər bildirirlər ki, bu ölümlərin 80 faizi ürəyin koronar arteriyalarındakı problemlərdən qaynaqlanır. Ürək çox böyük enerji tələb edən qeyri-adi əzələ topudur. İnsan ürəyi çox güclü olsa da, oksigen və qida ehtiyacları kifayət qədər ödənilmədikdə, ritmi sürətlə pozulur, "nasos gücü" azalır və sonra qəfil dayanır. Orqanizmin ümumi oksigen istehlakının, təxminən, dörddəbirini təşkil edən ürək bunu qanda olan oksigen və onu qidalandıran damarlardan keçərək əldə edir. Ürəyi qidalandıran damarlarda kritik daralma və ya tıxanma baş verdikdə isə bu, xəstələrin 20 faizində ani ölüm ilə nəticələnir.

Ürək damarlarında əmələ gələn laxtalanmalar nəticəsində ürəyin ehtiyac duyduğu qan miqdarının ödənilmədiyi zaman ortaya çıxan ilk problem ürək ritminin pozulmasıdır. Tədqiqatlar göstərir ki, qəfil ölümlərin 80 faizi ürəyi qidalandıran damarların tıxanması nəticəsində baş verir.

Sürətlə artan digər bir sağlamlıq problemi isə insulin müqavimətidir. Son dərəcə məkrli olan bu narahatlıq ürək və beyin damarlarının da amansız və gizli düşmənidir. İnsulin müqaviməti gənclər və orta yaşlılar arasında daha çox yayılır. Araşdırmalara görə, insulin müqavimətindən əziyyət çəkən hər dörd gəncdən və hər üç orta yaşlıdan biri ya ürək-damar xəstəsidir, ya da ona namizəddir.

Onu da qeyd edək ki, qəfil ölümlərin qarşısının alınmasında defibilyator cihazından vaxtında istifadə olunması mühüm rol oynayır. Əldə daşına bilən bu cihazlar elektrik şokunu istənilən yerə çatdırmaq üçün istifadə olunur. Mütəxəssislər bildirirlər ki, bu cihazı istifadə etmək düşünüləndən daha asandır. Əgər əvvəlcədən belə bir təlim almamısınızsa belə, cihazın qabını açdıqda etməli olduğumuz şeylər üzərində yazılır. Cihazın pedləri döş qəfəsinə qoyulduqda o cihaz əvvəlcə xəstənin ürək ritmini təhlil edir və şokla düzəldilə bilən aritmiya varsa, "Şok ver!" kimi səsli xəbərdarlıqla istifadəni aktivləşdirir. Bu zaman nəzərə alınmalı olan ən vacib detal şok verilərkən başqa heç kimin xəstəyə toxunmamasıdır.

Ürək sağlamlığına diqqət etməklə ani ölümlərin çoxunun qarşısını almaq mümkündür. Ailəsində erkən ölüm müşahidə edən, ata tərəfində 50 yaşından, ana tərəfində 60 yaşından əvvəl infarkt keçirənlərin olduğu şəxslər, ürəklə bağlı heç bir problemləri olmadığını düşünsələr belə, hər il müntəzəm olaraq ürək müayinəsindən keçməlidirlər. Kardioloqlar bildirirlər ki, zamanında müdaxilə edilsə, qəfil ölümlərin qarşısı alına bilər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# İrəvanda keçmiş hərbi xunta çevriliş planı hazırlayır

**Son günlərdə Ermənistanda narazılıq və qarşıdurma hallarının daha da artması, müxalifətlə hakimiyyət arasında ziddiyyətlərin bir qədər də kəskinləşməsi müşahidə olunur. Müxalifət planlaşdırdığı aksiyalarla baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmağı hədəfləyir.**

Onlar etirazlarına səbəb kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərirlər. Baş nazirin xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, xalqı dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.

Radikallar Ermənistanın daxili və dövlətlərarası magistral yollarını bloklamağa hədəfləyirlər. Ermənistan Respublikaçılar Partiyasının üzvü Artak Zakaryan deyib ki, heç bir müxalif siyasi qüvvə təkbaşına hakimiyyət dəyişikliyinə nail ola bilməyəcək: "Birləşmə nəyə lazımdır? Çünki bilirik ki, biz təkbaşına hakimiyyət dəyişikliyinə nail ola bilməyəcəyik. Onu da bilirik ki, təkcə biz deyil, bu gün müxalifət sahəsində fəaliyyət göstərən hər kəs təkbaşına hakimiyyət dəyişikliyinə nail ola bilməyəcək. Hökumət arasında parçalanmalar o qədər böyükdür ki, siyasi arenada ümumi səfərbərliyə ehtiyac olacaq".

Jurnalistin "Respublikaçılar Partiyası olmadan nəticə əldə etməyin mümkün olmadığını nəzərdə tutursunuz?" sualına Zakaryan belə cavab verib: "Bu, təkcə respublikaçılarla mümkün deyil. Dürüst olaq və deyək ki, bu, Respublikaçılar Partiyası olmadan və ya yalnız Respublikaçılar Partiyası ilə mümkün olmayacaq. Bu, yalnız "x" və ya "y" tərəfi ilə mümkün olmayacaq. Hər kəsin fikrini nəzərə alsaq, əminəm ki, nəticə verəcək. Biz bütün imkanları sınamalıyıq".

Bu arada yerli media yazır ki, Ermənistan hakimiyyəti qondarma "qarabağlıların hüquqlarının müdafiəsi şurası"ndan qorxur, onu parçalamağa və sıxışdırmağa çalışır. "4rd.am" nəşri qeyd edib ki, martın 29-da qondarma "qarabağlıların hüquqlarının müdafiəsi şurası"nın böyük mitinqindən sonra Ermənistan hakimiyyəti açıq şəkildə bu mübarizədən çəkinir: "Səbəb odur ki, müxtəlif hesablamalara görə, mitinqdə 15 minə yaxın adam iştirak edib və o vaxtdan etibarən dərc olunan gündəm ətrafında siyasi, ictimai sferanın geniş konsolidasiyası baş verir. Bildirirlər ki, onları ən çox narahat edən şey Azadlıq meydanında qurulan qərargah çadırı və ətrafında cərəyan edən proseslərdir. Buna görə də hökumətin təbliğat maşını mübarizəni gözdən salmaq və Qarabağdan Ermənistana köç etmiş şəxslərə qarşı düşmənçilik yaymaq kimi işlərlə məşğuldur. Bundan əlavə, hakimiyyətin təsiri altında olan müxtəlif şəxslər vasitəsilə həm daxili münaqişələri qızışdırmaqla, həm də Qarabağdan Ermənistana köç etmiş şəxslər arasında diqqəti yayındıran mövzuları gündəmə gətirməklə, mübarizənin cərgələrini parçalamağa çalışırlar".

Beləliklə, müxalifət İrəvanda etirazlara başlayacağını bəyan etməklə bu yoldan dönməyəcəklərini bildirir. Paşinyan isə ona qarşı yönəlmiş təhdidləri güc yolu ilə aradan qaldırmağı düşünür. Bu isə o deməkdir ki, Ermənistanda qarşıdakı dövrdə qanlı günlər yaşana bilər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## "Respublika Diaqnostika Mərkəzi" ASC-nin səhmdarlarının nəzərinə

"Respublika Diaqnostika Mərkəzi" ASC (VÖEN: 1300143511) 13 iyun 2025-ci il saat 15:00-da səhmdarların illik ümumi yığıncağını keçirir.

**Səhmdarların Ümumi Yığıncağı zamanı gündəliyə çıxarılacaq məsələlər:**

1. Cəmiyyətin 2024-cü il üzrə "İllik hesabat"ının, mənfəət və xərc hesabatının təsdiq edilməsi.
2. 2025-ci ildə görüləcək işlərin və digər məsələlərin müzakirəsi.

Ünvan: Bakı şəhəri, Tbilisi prospekti, 147, İnzibati bina, 2-ci mərtəbə. Telefon: (050) 873-78-70

***Rəhbərlik***

# Niderlandda NATO təlimləri başa çatıb

## "Le Figaro": "Fransa ordusu Rusiya ilə müharibə üçün yeni xəritələr hazırlayır"

**Fransa Silahlı Qüvvələrinin hərbçiləri dəqiq topoqrafik tədqiqatlar aparmaq üçün Rumıniyaya gediblər. Hərbi topoqraflar Rusiya ilə toqquşma olacağı ehtimalını nəzərə alaraq Rumıniyanın Ukrayna və Moldova ilə sərhədinin xəritəsini çəkirlər. Bu barədə "Le Figaro" qəzeti yazır.**



Qeyd olunur ki, fransızlar Karpat dağlarının ətəkləri ilə Dunay çayı arasındakı dəhliz olan Fokşani qapısının kartoqrafiyasına xüsusi diqqət yetiriblər. NATO hesab edir ki, bu yer Rusiya ordusu tərəfindən hücum üçün istifadə oluna bilər.

Polkovnik Jeromun ("Le Figaro" qeyd edir ki, təhlükəsizlik baxımından o, yalnız həmsöhbətinin adını çəkir - red.) izah etdiyi kimi, Fransanın NATO müttəfiqləri "ehtimal edilən döyüş meydanı" ilə bağlı yenilənmiş məlumatlara ehtiyac duyurlar. Onun sözlərinə görə, hərbçilər silah sistemlərinin harada yerləşdirilə biləcəyini anlamalı və texnikanın hərəkət marşrutlarını bilməlidirlər.

Fransız hərbi topoqraflarının rumınların dəstəyi ilə apardıqları iş nəticəsində ərazinin yeni üçölçülü xəritəsinin, hərbçilər üçün yararlı infrastruktur obyektlərinin kataloqunun və oriyentirlərin siyahısının hazırlandığı bildirilir.

Bundan əvvəl məlum olub ki, NATO ölkələrinin hərbi hava qüvvələri də Şimal dənizi üzərindəki təlimlər çərçivəsində "Rusiyanın alyans ərazisinə hücumu" ssenarisini həyata keçirib.

"Spiegel" jurnalının məqaləsində yazılır: "Almaniya Hərbi Hava Qüvvələri NATO tərəfdaşları ilə birlikdə Rusiyanın alyansın ərazisinə hücumu ssenarisini həyata keçirmək üçün təlimləri aprelin 11-də başa vurub".

Niderlandın Şimal dənizi sahilində keçirilmiş "Ramstein Flag" təlimləri çərçivəsində müdafiə döyüşündə müttəfiq quru qüvvələrinə dəstək vermək üçün məşqlər edilib. Qeyd olunur ki, bundan əvvəl gündəliyə NATO ərazilərinin hava hücumlarından qorunması və düşmənin hava hücumundan müdafiə mövqelərinin məhv edilməsi üzrə bölmələrin təlimləri də daxil edilib.

Jurnalın məlumatına görə, Almaniya təlimlərə 8 "Eurofighter" qırıcısı göndərib. Ümumilikdə, təlimdə Amerika F-35 təyyarələri də daxil olmaqla, 90-dan çox təyyarə, helikopter və dron iştirak edib.

NATO-nun Müttəfiq Hava Komandanlığının komandanı general Ceyms Hekker deyib ki, təlimlərin məqsədi öyrənilən bacarıqların heç vaxt istifadə edilməməsini təmin etməkdir, lakin alyans "həmişə fövqəladə hallarda onları tətbiq edə biləcəyinə" əmin olmalıdır.

"NATO martın 31-dən aprelin 11-dək Niderlandın şimalında genişmiqyaslı təlimlər keçirib", - deyə məlumatda bildirilir. "Ramstein Flag" əməliyyatında Niderlandla yanaşı, Almaniya, Danimarka və Böyük Britaniya da iştirak edib.

Leuvarden aviabazası NATO təlimlərinin qərargahına çevrilib. Almaniya, Danimarka və Böyük Britaniyanın hava limanları da "Ramstein Flag" əməliyyatına qoşulub.

Ümumilikdə NATO üzvü olan 15 ölkə təlimlərdə xüsusilə pilotsuz uçuş aparatları və raketlərdən istifadə etməklə Alyansa ehtimal olunan hücumların ssenarisini məşq edib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev və xidmətin kollektivi Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifova atası

**RAUF ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları İxtiyar Atalızadəyə bacısı

**AYGÜN ZEYNALOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

28 nömrəli Şəhər Poliklinikasının baş həkimi Təranə Məmmədova və poliklinikanın kollektivi "Bakı Baş Səhiyyə Mərkəzi" Publik Hüquqi Şəxsin direktor müavini Leyla Şərifovaya atası

**RAUF ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3448
Sifariş 688

Qiyməti 60 qəpik